‘KASPİ’ QƏZETİ 1881-Cİ İLİN YANVARINDAN NƏŞR OLUNUR. QƏZETİN ÇAPI 1999-CU İLDƏ BƏRPA OLUNUB

# Kaspi

ÜÇ ƏSRİN QƏZETİ




21 SENTYABR ŞƏNBƏ 2024 № 36 (4187) Qiyməti - 40 qəpik www.kaspi.az



## XANKƏNDİDƏ TARİX YAZILAN GÜN

Prezident İlham Əliyev: “Bilirəm ki, müəllimlər də böyük həvəslə bu işə başlayırlar və ümid edirəm ki, Qarabağ Universiteti bizim aparıcı ali məktəblərdən birinə çevriləcəkdir. Bunu etmək üçün bütün imkanlar var”.

SƏHİFƏ 2-də



## MEHRİBAN “DÜŞMƏNÇİLİK” FONUNDA ƏMƏKDAŞLIQ

Moskva ilə İrəvan arasında ticarət dövriyyəsi fantastik artım göstəriciləri nümayiş etdirir. Maraqlısı odur ki, bütün bunlar Rusiyaya qarşı Ukraynada ölüm-dirim müharibəsi aparan Qərbin gözləri önündə baş verir.

SƏHİFƏ 6-da



## İNZİBATÇILIQDAN TƏDRİSƏ GEDƏN YOL

Ölkədə fəaliyyət göstərən məktəb direktorlarının tədrisdən çox inzibatçılığa diqqət ayırması aktual problemə çevrilib. Bəs tədrisin inkişafına mane olan bu məsələni necə tənzimləmək olar?

SƏHİFƏ 10-da



## TURŞUNU EVDƏ HAZIRLAYAQ, YOXSA HAZIR ALAQ?

Havaların sərinləşməsi turşu mövsümünün başlamasından xəbər verir. Amma bu il alıcıları xoş olmayan durum gözləyir. Bazarlarda nə əvvəlki bolluq, nə də ucuzluq müşahidə edilir.

SƏHİFƏ 12-də

### BEYNƏLXALQ HÜQUQUN VƏ ƏDALƏTİN TƏNTƏNƏSİ GÜNÜ

# SUVERENLİYİMİZ MİLLİ SƏRVƏTİMİZDİR

Bölgəmizdə sülh yolunda başlıca əngəl sayılan münaqişə ocağı birdəfəlik söndürülüb. Qanunlarımız bütün ərazilərimizdə tətbiq edilir. Suveren ərazilərimizdə heç bir xarici dövlətin hansısa missiyası yoxdur, separatizmin izləri silinir, açdığı yaralar bağlanılır.



**PROBLEMLƏR BİRDƏFƏLİK HƏLL EDİLDİ**

Bir günlük antiterror tədbirləri əslində Azərbaycanın dövlət olaraq üzləşdiyi bir çox problemləri birdəfəlik həll etmiş oldu. Ən başlıcası, suverenliyini tam bərpa etmiş Azərbaycan özündən əmin, tam müstəqil siyasət yürüdən bir aktor olaraq qəbul edilir.

**ÖLKƏMİZƏ QARŞI TƏZYİQ KARTI ARADAN QALDIRILDI**

Artıq ölkəmizə qarşı münaqişə kartı, nəzarətsiz sərhədlər anlayışından istifadə edərək hansısa süni əngəllər yaratmaq, bizimlə bağlı qapılar arxasında təzyiq dili ilə danışmaq dövrü birdəfəlik bağlanılıb. Bu qapını Azərbaycan dövləti, xalqı Silahlı Qüvvələrinin, şəhidlərinin hesabına, onların canı-qanı bahasına bağlayıb.

SƏHİFƏ 3-də

### “Kaspi”nin “Ailə” rubrikasının budəfəki qonaqları musiqiçilər Abuzər və Karendir



# YOLLARI MUSİQİDƏ KƏSİŞƏN CÜTLÜK

Karen Danger-Manafzadə: “Əvvəldən rəqslərinizi bilmirdim, lakin toyumuzdan öncə Abuzərin anası mənə Azərbaycan xanımlarının necə rəqs etdiyini göstərmişdi”. Abuzər Manafzadə: “Karen çox çalışqan insandır, onun əzminə heyran qalırdım. Səhər saat beşdən oyanırdı ki, Azərbaycan dilini öyrənəcəyəm. Qısa müddətdə də öyrəndi”.

SƏHİFƏ 8-9-da



## 30 YAŞLI “ƏSRİN MÜQAVİLƏSİ”

Hər bir dövlətin siyasi müstəqilliyi onun iqtisadi azadlığından, özünü təmin edə bilmə imkanları və maliyyə resurslarından ciddi şəkildə asılıdır. “Əsrin müqaviləsi” Azərbaycana məhz bu iqtisadi azadlığı verdi.

SƏHİFƏ 4-də




## REALLAŞMASI ÇƏTİN OLAN “İSLAM ŞENGENİ”

İran Prezidenti Məsud Pezeşkianın ideyasını perspektivsiz edəcək mühüm səbəb müsəlman ölkələrinin bir-birindən kəskin fərqlənən inkişaf səviyyəsi və daxili təhlükəsizlik məsələləridir.

SƏHİFƏ 5-də



## UŞAQLARI CİNAYƏTLƏRDƏN NECƏ QORUMALI?

Uşaq qətlləri mövzusu cəmiyyətimizdə narahatlıqla qarşılanır. Yaxın keçmişdə ölkəmizdə tükürpərdici uşaq cinayətləri qeydə alınıb. Bəs uşaqlara qarşı cinayətlərin qarşısının alınması üçün hansı əlavə addımlar atıla bilər?

SƏHİFƏ 11-də



## “QARABAĞ”IN LİQA YOLÇULUĞU BAŞLAYIR

Mütəxəssislər hesab edirlər ki, “Qarabağ” bu rəqiblərlə qarşılaşmalarda 10-dan artıq xal toplayacaq. Bu isə komandanın pley-off zonasına düşməsinə kifayət edə bilər.

SƏHİFƏ 16-da

ÜÇ ƏSRİN QƏZETİ Kaspi



# XANKƏNDİDƏ TARİXİ GÜN

Prezident İlham Əliyev: "Bilirəm ki, müəllimlər də böyük həvəslə bu işə başlayırlar və ümid edirəm ki, Qarabağ Universiteti bizim aparıcı ali məktəblərdən birinə çevriləcəkdir. Bunu etmək üçün bütün imkanlar var. İndi verilən məlumata görə, artıq altı fakültə yaradılıb. Növbəti illərdə Tibb fakültəsi də yaradılacaq".




Prezident İlham Əliyev sentyabrın 20-də Xankəndi şəhərində Qarabağ Universitetinin təmirdən sonra açılışında iştirak edib. Dövlət başçısı universitetin müəllim və tələbə heyəti ilə görüşüb və çıxış edib.

### 90 MİNDƏN ÇOX GƏNC MÜHARİBƏDƏ İŞTİRAK EDİB

Prezident öncə müəllim və tələbə heyətini, Azərbaycan xalqını Dövlət Suverenliyi Günü münasibətilə təbrik edib. "Bu günü biz birlikdə Xankəndidə qeyd edirik və əminəm ki, 20 Sentyabr bundan sonra Azərbaycanda geniş qeyd ediləcək", - İlham Əliyev deyib.

Dövlət başçısı bildirib ki, düz bir il bundan əvvəl qəhrəman Azərbaycan Ordusu dövlət suverenliyini tam bərpa edib: "Bir gündən az davam edən antiterror əməliyyatı nəticəsində separatçıların kökü kəsildi, Azərbaycan öz dövlət suverenliyini tam təmin etdi, beynəlxalq hüquq zəfər çaldı və Azərbaycan öz gücünü bir daha göstərdi. Bu günü bizə bəxş edən qəhrəman hərbçilərimizi hər zaman böyük minnətdarlıqla yad edirik. Vətən uğrunda canlarından keçən şəhidlərimizin əziz xatirəsini daim qəlbimizdə saxlayırıq və saxlayacağıq. Allah bütün şəhidlərimizə rəhmət eləsin. Vətən müharibəsi və antiterror əməliyyatı keçirilərkən bizim 3200-dən çox qəhrəman şəhidimiz şəhadət zirvəsinə ucalmışdır. Onların və digər qəhrəman hərbçilərimizin rəşadəti və vətənpərvərliyi Qələbənin əsas amilləridir. Vətən uğrunda İkinci Qarabağ müharibəsində 90 mindən çox gənc azərbaycanlı iştirak etmişdir".

### "HƏRBÇİLƏRİMİZLƏ FƏXR EDİRİK"

Prezident bildirib ki, bu gün dünyada bir çox yerlərdə müharibələr, hərbi münaqişələr, toqquşmalar gedir: "Müqayisə etmək üçün də kifayət qədər imkanlarımız var, məlumatlarımız var. 44 gün ərzində bu çətin coğrafiyada düşmənin 5-6, bəzi yerlərdə 7 müdafiə xəttini yararaq hər gün irəliyə getmək, itkilər verərək aşağıdan yuxarıya qalxmaq, Şuşa kimi alınmaz qalanı sıldırım qayalara dırmaşaraq ancaq yüngül silahlarla azad etmək, - müasir tarixdə hansı ordu buna bənzər qəhrəmanlıq, peşəkarlıq göstərmişdir! Bu, həqiqətdir. Təbii ki, biz bu Qələbə ilə, haqlı olaraq hərbçilərimizlə fəxr edirik və əbədi fəxr edəcəyik".

Prezident bildirib ki, İkinci Qarabağ müharibəsi və antiterror əməliyyatı nəticəsində Azərbaycan nəinki beynəlxalq hüququ, öz milli qürurunu bərpa etdi, həm də bütün dünyaya nümayiş etdirdi ki, ədalətsizlik əbədi davam edə bilməz. "Biz göstərdik ki, gücü iradə, peşəkarlıq, vətənpərvərlik, milli ruhda tərbiyə olunan gənc nəsil olarsa, heç bir qüvvə o xalqın qabağında dura bilməz - nə 6, 7, 8, 9, 10 müdafiə xətti, nə Ermənistan ordusunun coğrafi üstünlüyü, - çünki bütün təpələrdə onlar yerləşmişdi, - nə böyük dövlətlər, nə də Ermənistanı silahlandıran və onlara mənəvi və fiziki yardım göstərən dövlətlər", - Prezident bildirib.

## "MÜHARİBƏMİZ AZADLIQ MÜHARİBƏSİ İDİ"



Dövlət başçısı deyib ki, xalqımız üçün gələcəkdə öz gücünə güvənmək, güclü olmaq, güclü dövlət qurmaq, heç kimdən asılı olmamaq, heç kimin qarşısında baş əyməmək əsas hədəflərdir: "Bunu təmin etmək üçün əlbəttə ki, dövlət siyasəti olmalıdır və var. Cəmiyyətdə birlik olmalıdır, bu da var. 44 günlük Vətən müharibəsi onu göstərdi ki, bəlkə də heç bir ölkədə bizim cəmiyyətimiz qədər birlik nümayiş etdirən cəmiyyət yoxdur. Bizdən sonra gələn nəsil, gənclər də bu yolla getməlidirlər".

Prezident bildirib ki, müxtəlif Qərb ölkələrinin siyasətçiləri və yüksək vəzifə tutanlar, bəzi ölkələrin rəsmi nümayəndələri belə bir qəbuledilməz ifadələr işlədirlər ki, Azərbaycan Qarabağı zəbt edib: "Yəni, bu, ikiüzlülüyün, riyakarlığın zirvəsidir. Ölkə öz torpağını necə zəbt edə bilər?! Bizim müharibəmiz azadlıq müharibəsi idi. Yəni, bunu deyənlər, bizə qarşı ittihamlar irəli sürənlər də bunu yaxşı bilirlər. Sadəcə olaraq, ikili standartlar, ikiüzlülük, riyakarlıq, islamofobiya və xalqımıza olan düşmənçilik - biz bunu heç vaxt unutmamalıyıq və gənc nəsil bunu bilməlidir".

## QARABAĞ UNİVERSİTETİNİN YARADILMASI TARİXİ HADİSƏDİR

Prezident Qarabağ Universitetinin fəaliyyətə başlamasından da danışıb. "Hesab edirəm ki, Qarabağ Universitetinin yaradılması tarixi hadisədir", - deyə dövlət başçısı bildirib. Onun sözlərinə görə, burada ölkəmizin hər bir bölgəsindən tələbə var: "Yüksək bal toplayan, o cümlədən 600-dən çox bal toplayan tələbələr bizimlə görüşdə iştirak edirlər və buraya böyük həvəslə gəlmişlər. Müəllim heyəti də formalaşdı. Bilirəm ki, müəllimlər də böyük həvəslə bu işə başlayırlar və ümid edirəm ki, Qarabağ Universiteti bizim aparıcı ali məktəblərdən birinə çevriləcəkdir. Bunu etmək üçün bütün imkanlar var. İndi verilən məlumata görə, artıq altı fakültə yaradılıb. Növbəti illərdə Tibb fakültəsi də yaradılacaq. Xocalıda Aqrar elmlər fakültəsi, Şuşada Turizm fakültəsi fəaliyyət göstərəcək. Yəni, bu, bir neçə şəhəri birləşdirən universitet olacaq. Əlbəttə ki, Qarabağa qayıdacaq keçmiş köçkünlər, onların uşaqları burada oxuyacaq və ölkəmizin hər bir yerindən gənclər buraya gələcəklər".




Dövlət başçısı bildirib ki, bu gün azad Qarabağda olmaq, tələbələrin gülər üzlərini görmək doğrudan da böyük xoşbəxtlikdir: "Bəlkə də bundan böyük xoşbəxtlik ola bilməz. Müəllimlərə, tələbələrə uğurlar arzulayıram. Yaxşı işləyin, yaxşı oxuyun ki, hər zaman Azərbaycan zəfər çalsın, hər zaman - əgər lazım olarsa, həm döyüş meydanında, həm iqtisadi sahədə, həm siyasi müstəvidə, hər bir yerdə Azərbaycan həmişə zirvələrdə olsun!"

Qeyd edək ki, Prezident İlham Əliyev Xankəndidə Qarabağ Universitetinin tələbə yataqxanasının təmirdən sonra açılışında da iştirak edib.

## 20 SENTYABR AZƏRBAYCAN RESPUBLİKASI DÖVLƏT SUVERENLİYİ GÜNÜDÜR

# SUVERENLİYİMİZ MİLLİ SƏRVƏTİMİZDİR



Bölgəmizdə sülh yolunda başlıca əngəl sayılan münaqişə ocağı birdəfəlik söndürülüb. Qanunlarımız bütün ərazilərimizdə tətbiq edilir. Suveren ərazilərimizdə heç bir xarici dövlətin hansısa missiyası yoxdur, separatizmin izləri silinir, açdığı yaralar bağlanılır, viran qoyulmuş doğma yurdlarımız öz gücümüzlə bərpa edilir.



AZAD ƏLİYEV
azad.eliyev@kaspi.az

Prezident İlham Əliyev Azərbaycan Respublikasında Dövlət Suverenliyi Gününün təsis edilməsi haqqında Sərəncam imzalayıb. Sərəncama əsasən, hər il sentyabrın 20-si Azərbaycan Respublikasında Dövlət Suverenliyi Günü kimi qeyd ediləcək.

### 23 SAATLIQ ANTİTERROR TƏDBİRLƏRİ

Xatırladaq ki, 2023-cü ilin 19-20 sentyabr tarixlərində Silahlı Qüvvələrimiz cəmi 23 saat ərzində Qarabağ iqtisadi rayonu ərazisində məskunlaşmış və dövlətimizin suverenliyini təhdid edən separatçı rejim və onun silahlı dəstələrinə qarşı genişmiqyaslı antiterror tədbirləri həyata keçirib. Prezidentin Sərəncamında da vurğulandığı kimi, antiterror tədbirlərinin başlıca məqsədi Ermənistan silahlı qüvvələrinin qalıqlarının tərksilah edilərək torpaqlarımızdan çıxarılması, həmin ərazilərdə Azərbaycan Respublikası konstitusiya quruluşunun bərpası idi. Azərbaycan ordusu Ali Baş Komandanın qarşıya qoyduğu vəzifəni çox qısa bir müddətdə, cəmi 23 saatda yüksək peşəkarlıqla yerinə yetirdi. Uzun illər ərzində sərvətlərimizi talayan, dinc sakinlərə qarşı amansızlıqlar törədən, hərbi və bəşəri cinayətlərə imza atan separatçı xuntanın rəhbərləri həbs edilərək Bakıya gətirildi. Son bir ildə ilk dəfə olaraq Azərbaycan Respublikasının qanunları bütün ərazilərimizdə tətbiq edilir, ölkəmizin hər bir qarışı özümüzün nəzarətindədir. Suveren ərazilərimizdə heç bir xarici dövlətin hansısa missiyası yoxdur, separatizmin izləri silinir, açdığı yaralar bağlanılır, viran qoyulmuş doğma yurdlarımız öz gücümüzlə bərpa edilir. Sərhədlərimizdə Azərbaycan əsgəri keşik çəkir.

## BEYNƏLXALQ HÜQUQ VƏ ƏDALƏTİN TƏNTƏNƏSİ

Sirr deyil ki, bu gün Azərbaycanın bütün əraziləri üzərində suverenliyini tam təmin etməsi, sərhədlərini nəzarətə götürməsi və ən əsası, daxilindəki separatizm ocağını söndürməsini ölkəmizə qarşı olan qüvvələr həzm edə bilmirlər. Hər fürsətdə təzyiq mexanizmi formalaşdırmağa səy göstərirlər. Lakin reallıq və faktlar bu iddiaların hamısının əsassız olduğunu sübut edir. Bu baxımdan Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin məlum ittihamlarla bağlı rəsmi açıqlaması diqqət çəkir.

“Ötən il sentyabrın 19-20-də Silahlı Qüvvələrimiz tərəfindən cəmi 24 saatdan az bir müddətdə öz suveren ərazilərimizdə aparılan antiterror tədbirləri beynəlxalq hüquqa, o cümlədən beynəlxalq humanitar hüquqa tam uyğun şəkildə həyata keçirilib. Azərbaycanın öz torpaqları üzərində suverenliyini bərpa etməsi tarixinin ən şanlı səhifələrindən biri olmaqla yanaşı, beynəlxalq hüquq və ədalətin təntənəsidir”, - deyə XİN-in bəyanatında deyilir.

Yəni Azərbaycan öz suveren ərazilərində separatizm ocağını söndürərkən belə, hüququn aliliyini, beynəlxalq humanitar prinsipləri əsas tutur. Bu, rəsmi Bakının həyata keçirdiyi daxili və xarici siyasətin əsasını təşkil edir.

### SÜLH YOLUNDA ƏNGƏL QALMADI

Bir günlük antiterror tədbirləri əslində Azərbaycanın dövlət olaraq üzləşdiyi bir çox problemləri birdəfəlik həll etmiş oldu. Ən başlıcası, suverenliyini tam bərpa etmiş Azərbaycan özündən əmin, tam müstəqil siyasət yürüdən bir aktor olaraq qəbul edilir. Artıq ölkəmizə qarşı münaqişə kartı, nəzarətsiz sərhədlər anlayışından istifadə edərək hansısa süni əngəllər yaratmaq, bizimlə bağlı qapılar arxasında təzyiq dili ilə danışmaq dövrü birdəfəlik bağlanılıb. Bu qapını Azərbaycan dövləti, xalqı Silahlı Qüvvələrinin, şəhidlərinin hesabına, onların canı-qanı bahasına bağlayıb. Heç bir məkrli qüvvə bir daha bu qapıdan içəri daxil olmağa, hətta boylanmağa belə cəsarət etməyəcək.

Bölgəmizdə sülh yolunda başlıca əngəl sayılan münaqişə ocağı birdəfəlik söndürülüb. Ölkəmizə qarşı ərazi iddiaları irəli sürənlər aldıqları ikiqat cavab zərbəsindən sonra hələlik sözdə də olsa ərazi bütövlüyümüzü və suverenliyimizi tanıdıqlarını bəyan edirlər. İndi əsas məsələ bu bəyanatların sülh müqaviləsi formasında hüquqi qiymət almasıdır. Antiterror tədbirləri həmin qüvvələrə başqa çıxış yollarının olmadığını göstərəcək ən layiqli dərs oldu desək, yanılmarıq.

## AZƏRBAYCAN XALQI BU GÜN ÖZ MÜSTƏQİL DÖVLƏTİNƏ SAHİBDİR

Prezident İlham Əliyevin Azərbaycan Respublikasında Dövlət Suverenliyi Gününün təsis edilməsi haqqında Sərəncamında da qeyd edildiyi kimi, hər bir xalq üçün öz taleyinə sahib olmaq, müstəqil dövlətini yaradaraq inkişaf etdirmək onun ən böyük nailiyyətidir: “Tarixin müxtəlif mərhələlərində üzləşdiyi çətinliklərə, işğala, məhrumiyyətlərə baxmayaraq, heç bir qüvvə xalqımızın müstəqillik, dövlətçilik əzmini sarsıda bilməmişdir. Azərbaycan xalqı bu gün öz müstəqil dövlətinə sahibdir, qəhrəman əsgər və zabitlərimizin, şəhidlərimizin qanı hesabına əldə edilmiş ərazi bütövlüyümüz, suverenliyimiz xalqımızın milli sərvətidir”.

Xalq olaraq, dövlət olaraq bu milli sərvəti qorumaq, gələcək nəsillərə əmanət qoymaq və ən əsası, güclü, müstəqil və suverenliyi, ərazi bütövlüyü tam təmin edilmiş Azərbaycan qurmaq başlıca vəzifəmizdir.

DÖVLƏTİMİZİN, XALQIMIZIN TALEYİNDƏ MÜSTƏSNA ROL OYNAYAN MÜQAVİLƏ

# 30 YAŞLI “ƏSRİN MÜQAVİLƏSİ”



Hər bir dövlətin siyasi müstəqilliyi onun iqtisadi azadlığından, özünü təmin edə bilmə imkanları və maliyyə resurslarından ciddi şəkildə asılıdır. “Əsrin müqaviləsi” Azərbaycana məhz bu iqtisadi azadlığı verdi.

AZAD ƏLİYEV
azad.eliyev@kaspi.az

Müstəqil Azərbaycanın hərtərəfli inkişafının əsasını təşkil edən “Əsrin müqaviləsi”nin imzalanmasının 30 ili tamam oldu. 1994-cü il 20 sentyabrda Ümummilli Lider Heydər Əliyevin gərgin əməyi və təşəbbüsü ilə dünyanın ən böyük enerji şirkətləri ilə imzalanan bu saziş Azərbaycanın uğurlu neft strategiyasının təməlini qoydu.

### İLK VƏ ƏN MÜHÜM ADDIM

Bu gün “Əsrin müqaviləsi”nin dövlətimiz, xalqımızın taleyində müstəsna rol oynadığını daha aydın təsəvvür etmək üçün 30 illik zaman ərzində baş verən proseslərə nəzər salmaq kifayətdir.

“Əsrin müqaviləsi” bütövlükdə Azərbaycan adının dünyada tanıdılması, müstəqil dövlət olaraq qəbul edilməsi, beynəlxalq birliyə inteqrasiyası və dünya dövlətləri sırasında öz layiqli yerini tutması istiqamətində atılan ilk və ən mühüm addım idi. Məhz bu saziş sayəsində Azərbaycan dünyanın ən etibarlı enerji təchizatçılarından birinə çevrildi. Onun nəticələri gözlənildiyindən də möhtəşəm alındı.

### MARAQLARIN USTALIQLA UZLAŞDIRILDIĞI SAZİŞ

Bu gün Azərbaycan beynəlxalq aləmdə qarşılıqlı maraqlara əsaslanan balanslaşdırılmış xarici siyasət kursu həyata keçirir. Beynəlxalq aləmdə baş verən son hadisələr məlum kursun nə dərəcədə düzgün olduğunu bir daha isbatlayır. Ulu Öndər Heydər Əliyev də 30 il öncə Azərbaycanın ən çətin zamanında böyük dövlət xadimi, siyasət dahisi olduğunu bir daha dünyaya nümayiş etdirdi. İşğal, bir milyondan artıq qaçqın və məcburi köçkün, ciddi maliyyə çatışmazlığı və güclü təzyiqlər, şimaldan və cənubdan Xəzərdəki enerji yataqlarımıza olan iddialar... Bütün bunlar keçən əsrin 90-cı illərin əvvəllərində Azərbaycan reallıqları idi. Bu reallıqlar fonunda dünyanın ən böyük enerji nəhəngləri ilə danışıqlar aparmaq, onları Azərbaycana milyardlarla dollar sərmayə yatırmağa inandırmaq böyük ustalıq, dəmir siyasi iradə, zəngin dövlətçilik təcrübəsi tələb edirdi. Lakin Ümummilli Lider dünyanın müxtəlif qütblərində qərarlaşan dövlətlərin maraqlarını uzlaşdırmağa, bütün tərəflər arasında balans yaradaraq Cənubi Qafqazın gələcək siyasi konyunkturasını dəyişən “Əsrin müqaviləsi”nin imzalanmasına nail oldu. Məhz həmin dövrdən Azərbaycanın beynəlxalq aləmə uğurlu inteqrasiyasını təmin edən balanslı xarici siyasət kursunun da təməli qoyuldu.

### İCRA OLUNAN LAYİHƏLƏRDƏ “ƏSRİN MÜQAVİLƏSİ”NİN İZİ

Hər bir dövlətin siyasi müstəqilliyi onun iqtisadi azadlığından, özünü təmin edə bilmə imkanları və maliyyə resurslarından ciddi şəkildə asılıdır. “Əsrin müqaviləsi” Azərbaycana məhz bu iqtisadi azadlığı verdi. Əsası Ulu Öndər tərəfindən qoyulan uğurlu neft strategiyasının Prezident İlham Əliyev tərəfindən daha da genişləndirilməsi, Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum, daha sonra isə TANAP kimi meqalayihələrin reallaşdırılması Azərbaycanın iqtisadi müstəqilliyini təmin etdi. Azərbaycan dövləti üçün iqtisadi artımı dəstəkləyən yeni əhəmiyyətli gəlir mənbəyi oldu. Ölkənin beynəlxalq aləmlə qurduğu yeni ticarət əlaqələrinə əhəmiyyətli töhfə verdi. Xəzərin sahillərində dünyanın ən müasir neft və qaz emalı obyektlərindən birini yaratdı. Rəqabət qabiliyyətli yerli təchizat zəncirinin formalaşmasını stimullaşdırdı...

Sonrakı illərdə neft kapitalı iqtisadiyyatın digər əsas sahələrinə yönəldilərək Azərbaycanın dayanıqlı iqtisadi inkişaf strategiyasının hazırlanmasında mühüm rol oynadı. Sosial, mədəni, yol-nəqliyyat, təhsil, tranzit imkanlarının genişləndirilməsi, tikinti, kosmik sənaye və sair sahələrin hər birində əldə olunan nailiyyətlərdə, həyata keçirilən layihələrdə “Əsrin müqaviləsi”nin izi var.

## TARİXİ ZƏFƏRƏ APARAN YOL

Təbii ki, bu sazişin Azərbaycan dövlətinə yaratdığı ən böyük imkan 2020-ci ildə 30 illik işğala son qoyulması ilə nəticələnən tarixi zəfərimiz oldu. “Əsrin müqaviləsi”nin imzalanması nəticəsində həm Azərbaycanın beynəlxalq aləmdə mövqeyi gücləndirildi, həm də təxirə salınmadan peşəkar ordu quruculuğu prosesinə start verildi. Ən müasir hərbi texnikalar, peşəkar zabit korpusu, hərbi kadrlar, yerli müdafiə sənayesi yaradılaraq Silahlı Qüvvələrimizin ixtiyarına verildi. “Əsrin müqaviləsi” ilə başlayan bu yol Prezident İlham Əliyevin rəhbərliyi ilə tarixi zəfərlə yekunlaşdı. İşğal faktına son qoyuldu, suverenliyimiz, ərazi bütövlüyümüz bərpa edildi, ölkədə separatizmin kökü kəsildi.

### ETİBARLI TƏRƏFDAŞ

Bu gün Azərbaycan dünyada tək neft yox, həm də etibarlı qaz təminatçısıdır. “Əsrin müqaviləsi”ndən keçən müddət ərzində ölkəmiz dünyada etibarlı enerji təminatçısı və imzasına, sözünə sona qədər əməl edən tərəfdaş kimi qəbul edilir. Bunun məntiqi nəticəsi olaraq hazırda Azərbaycan 10 ölkəni mavi yanacaqla təmin edir, onlardan yeddisi Avropa İttifaqının üzvüdür.

Artıq Azərbaycan dünyada öz layiqli yerini tutan, müstəqil siyasət yürüdən, bölgəmizdə əsas söz sahibi olan bir dövlətdir. Qoşulmama Hərəkatına uğurla sədrlik edən, BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilən, meqalayihələr reallaşdıran bir ölkədir. Ulu Öndər Heydər Əliyevin imzası ilə təsdiqlənən “Əsrin müqaviləsi” ilə başlayan inkişaf yolunda Prezident İlham Əliyevin rəhbərliyi ilə daha böyük zirvələr fəth edəcəyimiz şübhəsizdir.



# REALLAŞMASI ÇƏTİN OLAN “İSLAM ŞENGENİ” İDEYASI




İran Prezidenti Məsud Pezeşkianın ideyasını perspektivsiz edəcək mühüm səbəb müsəlman ölkələrinin bir-birindən kəskin fərqlənən inkişaf səviyyəsi və daxili təhlükəsizlik məsələləridir. Bu gün müsəlman ölkələri həm də daxili təhdidlərlə üz-üzədir.



AZƏR NURİYEV

İslam ölkələri arasında sərhəd nəzarətinin ləğvinin tərəfdarı olduğunu deyən İran prezidentinin fikrincə, bu, Qərbin tətbiq etdiyi sanksiyaları neytrallaşdırmağa kömək edə bilər. “İslam Şengeni” ideyasının orijinal ideya olduğunu tam da söyləmək olmaz. Ondan əvvəl Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan da İslam ölkələri arasında əməkdaşlığın genişləndirilməsinin vacibliyindən danışıb. O, “İslam Şengeni”ni yox, əsasən hərbi əməkdaşlığı nəzərdə tutub. Bəs İran Prezidentinin istinad etdiyi Şengen zonası nədir? Qeyd edək ki, Şengen zonası ilə bağlı iki saziş imzalanıb. Birinci Şengen müqaviləsi 1985-ci il 14 iyun tarixində beş Avropa ölkəsi arasında bağlanıb. Müqaviləni Fransa, Qərbi Almaniya ilə yanaşı, Benilüks ölkələri olan Belçika, Niderland və Lüksemburq imzalayıblar. 1990-cı il 19 iyun tarixində Şengen Müqaviləsinin Tətbiq Konvensiyasının imzalanması ilə razılaşma qüvvəyə minib. Müqavilə Lüksemburq, Fransa və Almaniyanın sərhədlərinin kəsişdiyi yer olan Lüksemburqun Şengen şəhərində imzalandığına görə həmin şəhərin adı ilə adlandırılıb. Şengen zonası üzrə ikinci müqavilə isə Mos çayının ortasındakı Kraliça Mari-Astrid adlı gəmidə imzalanıb. Şengen zonasına hazırda Almaniya, Avstriya, Belçika, Bolqarıstan, Çexiya, Danimarka, Estoniya, Finlandiya, Fransa, Xorvatiya, İspaniya, İsveç, İtaliya, Latviya, Litva, Lüksemburq, Macarıstan, Malta, Niderland, Rumıniya, Polşa, Portuqaliya, Slovakiya, Sloveniya, Yunanıstan, həmçinin İslandiya, İsveçrə, Lixtenşteyn, Norveç daxildir. Bəhs olunan zona müqaviləyə qoşulan Avropa dövlətində daxili vizasız hərəkəti təmin edən şərti ərazidir. Şengen zonası daxilində hərəkət edənlər üçün sərhəd yoxlanışı tələb olunmur və səyahətçilər vahid ölkə prinsipi ilə hərəkət etmək imkanına malikdirlər.



Məsud Pezeşkian

### DAHA ÇOX SİYASİ MƏQSƏDLƏR VAR

Avropa Şengen sistemi modelinin İslam dünyasında qurulması təsadüfi sayıla bilməz. Məlumdur ki, İran başladığı nüvə proqramına görə ABŞ və digər Qərb dövlətlərinin tətbiq etdikləri sanksiyalar altındadır. Qadağalar İranın zəngin karbohidrogen ehtiyatlarını dünya bazarlarına çıxarmaq imkanlarını əhəmiyyətli dərəcədə məhdudlaşdırıb və bu səbəbdən ölkənin sosial-iqtisadi durumu pisləşib. Bu gün İranda kəskin maliyyə çatışmazlığı müşahidə edilir. Rəsmi Tehran hətta ən zəruri layihələrin reallaşdırılmasına investisiyalar yönəltməkdə çətinlik çəkir. Bütün bunlar azmış kimi, indi də İran Rusiyaya ballistik raketlər satmaqda günahlandırılır. Artıq ABŞ və digər Qərb dövlətləri tərəfindən rəsmi Tehrana qarşı yeni sanksiyaların anonsu edilib. Yeni sanksiyalar paketinin tətbiqindən sonra İranda iqtisadi-sosial vəziyyətin daha da ağırlaşması qaçılmaz hala gələcək.

Bunu düşünən Məsud Pezeşkian çıxış yolunu müsəlman ölkələri ilə ticarət əlaqələrini genişləndirməkdə görür.

## KƏSKİN FƏRQLƏNƏN İNKİŞAF SƏVİYYƏSİ

Onun qənaətinə görə, İslam dünyasında Şengen zonasının yaradılması İran və digər müsəlman ölkələri üçün Qərbdən gələn sanksiyaların fəsadlarından qorunmaq imkanı yaradacaq.

Ancaq bu ideyanın yaxın perspektivdə reallaşacağı mümkünsüz görünür. Bunu da şərtləndirən bir sıra amillər var. Ekspertlər bildirirlər ki, Pezeşkianın ideyasını perspektivsiz edəcək mühüm səbəb müsəlman ölkələrinin bir-birindən kəskin fərqlənən inkişaf səviyyəsi və daxili təhlükəsizlik məsələləridir. Açıq demək lazımdır ki, bu gün müsəlman ölkələri həm də daxili təhdidlərlə üz-üzədirlər. Bu səbəbdən, İslam ölkələri arasında Şengen zonası bu gün üçün real görünmür. Müsəlman ölkələrinin əksəriyyəti ona hazır deyil.

### “ƏRƏB ŞENGEN”İ ARTIQ REALLAŞIR

Bu arada İran Prezidentinin təklifinin reallaşma şanslarını azaldan məqamlardan biri də ərəb dövlətlərinin artıq illərdir öz aralarında vahid gömrük zonası yaradılması ilə bağlı apardıqları danışıqlardır. Son məlumatlara görə, “Ərəb Şengeni” - Körfəz ölkələri üçün vahid viza ilin sonuna kimi tətbiq ediləcək. Hazırda müqavilənin gələcək tərəfləri turistlər üçün ümumi xidmətlər paketini formalaşdırmaq üçün böyük turizm operatorları, otellər və aviaşirkətlərlə məsləhətləşmələr aparırlar. Söhbət altı ölkədə - Bəhreyn, Qətər, Küveyt, Səudiyyə Ərəbistanı, Birləşmiş Ərəb Əmirlikləri və Omanda sərbəst hərəkət hüququ verən vizadan gedir.

“Aurora” Yaxın Şərq şirkətlər qrupunun baş direktoru Oksana Kolomiets bildirir ki, belə bir vizanın tətbiqinin əsas bonusu Səudiyyə Ərəbistanının siyahıda olmasıdır, çünki bu ölkə yaxın vaxtlara qədər Yaxın Şərqin ən qapalı ölkələrindən biri olub. Bu viza ümumilikdə müsəlmanlar üçün əlavə imkanlar açacaq ki, müqəddəs Məkkə və Mədinəyə ziyarətlər sadələşəcək.

BURADA SİZİN REKLAMINIZ OLA BİLƏR
Tel: (+994 55) 457-02-03 / (+994 77) 447-47-17 E-mail: kaspiqazeti@kaspi.az

ÜÇ ƏSRİN QƏZETİ Kaspi



# MEHRİBAN "DÜŞMƏNÇİLİK" FONUNDA ƏMƏKDAŞLIQ



**Son iki il ərzində Moskva ilə İrəvan arasında ticarət dövriyyəsi fantastik artım göstəriciləri nümayiş etdirir. Maraqlısı odur ki, bütün bunlar Rusiyaya qarşı Ukraynada ölüm-dirim müharibəsi aparan Qərbin gözləri önündə baş verir.**



RÜSTƏM QARAXANLI

Başa çatan həftədə Rusiyanın Ermənistanı yeni "Smerç" tipli raketlərlə təmin etdiyinə dair məlumat yayıldı və tezliklə rəsmi İrəvan tərəfindən təsdiqini tapdı. Ermənistan parlamentinin müdafiə və təhlükəsizlik məsələləri komitəsinin üzvü Qaqik Melkonyan bildirdi ki, yeni silah Rusiya tərəfindən İrəvana öncə imzalanmış müqaviləyə əsasən təqdim olunub. Elə həmin komitənin sədri Andranik Köçəryan isə bəyan etdi ki, indiyədək edilmiş bütün sifarişlər sabit şəkildə reallaşmağa başlayıb. Rusiyanın Ermənistana silah tədarükünü bərpa etməsinin arxasında hansı niyyət dayanır?

Ermənistana silah satışının bərpa edilməsi iki ölkə arasında üzdə gərgin, arxada isə mübhəm münasibətlərin olmasına dair ilk və tək fakt deyil. Son iki il ərzində Moskva ilə İrəvan arasında ticarət dövriyyəsi fantastik artım göstəriciləri nümayiş etdirir. Statistikaya görə, bu göstərici səkkiz milyard dollar həddindədir. Bu, ötən ilə nisbətən az qala 60 faizlik artım deməkdir. Proqnozlara inansaq, bu ilin sonunda statistika 14 milyarda çatacaq.

Daha maraqlısı odur ki, bütün bunlar Rusiyaya qarşı Ukraynada ölüm-dirim müharibəsi aparan Qərbin gözləri önündə baş verir. Ticarət dövriyyəsində müşahidə edilən bu anormal artımın səbəbləri məlumdur və bu barədə çox danışılıb. Problemin daha vacib tərəfi ondan ibarətdir ki, Rusiyanın Ermənistana silah satışını bərpa etməsi ümumi dövriyyə ilə müqayisədə "okeanda damla" qədərdir. Belə çıxır ki, Ermənistanın silahlandırılması tək silah tədarükünün bərpası deyil, həm də Rusiya ilə ticarətdən gələn böyük miqdarda pullar hesabına həyata keçirilir. Paşinyan hökuməti bu vəsaitlə Fransadan və Hindistandan da uzaqmənzilli öldürücü silahlar əldə edir. Yəni, Moskva hər iki halda İrəvanda revanşist tendensiyaların güclənməsinin səbəbkarıdır.

## ZAXAROVA İLƏ SİMONYANIN PUBLİK "DİDİŞMƏ"Sİ

Nə qədər təəccüblü olsa da, yüksələn iqtisadi kooperasiya fonunda ölkələrin rəsmiləri publik "didişmə" ilə məşğuldurlar. XİN-lər səviyyəsində qarşılıqlı atışma davam edir, Rusiyanın düşünən beyinləri İrəvanı naxələflikdə, 200 illik müştərək tarixə arxa çevirməkdə və erməni xalqının xilaskarı olan Rusiyanı Qərbə satmaqda suçlayırlar. İrəvanda isə Qərbin "qanadı altına" toplaşan qüvvələr əksinə, erməni xalqının tarixi faciələrində məhz Rusiyanın günahkar olduğunu deyir, Moskvanın 10 noyabr müqaviləsinin tələbinə əsasən Zəngəzur dəhlizinin təhlükəsizliyini təmin etməyə haqqı çatmadığını bəyan edirlər.

Silah satışının bərpasına dair xəbərin ictimailəşməsindən sonra gələ biləcəyimiz qənaət bu ola bilər: ya tərəflər arasında gərginlik fonu yaratmaqla diqqəti gündən-günə güclənən əməkdaşlıqdan yayındırmağa dair anlaşma var, ya da Moskva İrəvanı tam itirməmək üçün dəridən-qabıqdan çıxır ki, hərbi təmayüllü məhsulların tədarükü də bu istiqamətdə atılmış addımlardan biridir.

## İRƏVAN VƏ MOSKVANIN BİR-BİRİNDƏN QARŞILIQLI ASILILIĞI



Nikol Paşinyan

İki ölkə arasında fəaliyyətdə olan bu mexanizm Ermənistanın Rusiyadan daha çox dividend əldə etməsi üçün əlverişli şərait yaradıb. Baş nazir Paşinyanın xarici siyasətə dair üç açıqlamasından ikisi ya dolayı yolla Moskvanın tənqidinə, ya da əsas iqtisadi tərəfdaşın nəzarətində olan hərbi blokun yarıtmaz müttəfiqliyinə həsr olunub. Nikol hətta Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatını Ermənistanın təhlükəsizliyinə ən böyük təhdid adlandırmaqdan belə çəkinmədi. Bundan iki gün əvvəl isə erməni mediasında Rusiyada təlim görmüş bir qrup şəxsin Ermənistanda dövlət çevrilişi həyata keçirməyə hazırlaşdığına və ifşa edildiyinə dair məlumat yaydı. Belə təəssürat yaranır ki, Paşinyan ən azı iki faktordan şantaj qismində istifadə edib Rusiyadan daha çox "qoparmaq" xəttini tutub. Birinci amil Moskvanı və onun satellit qurumlarını tənqid, Qərbə doğru reverans etməkdirsə, ikinci faktor Rusiya üçün tranzit funksiyasını yerinə yetirməkdir ki, məhz bu da ticarət dövriyyəsinin anormal şişməsinin başlıca səbəbidir. Sadə dillə desək, Rusiyanın Ukrayna ilə müharibədə yararlandığı silahın hazırlanmasında istifadə edilən məhsulların Ermənistan vasitəsilə idxalı Moskvanı İrəvandan asılı vəziyyətə salıb. Yoxsa Paşinyanın əl-qol açmasını çox sadə yolla - qazın qiymətini qaldırmaqla tənzimləmək olardı. Necə olur, Gürcüstanın qanuni ərazisi olan və işğal edilən Abxaziyadakı "müstəqil dövlət"i lazım gələndə cəzalandırmaq olur, Ermənistanı yox?

## "MİNSK QRUPU"-2?

Rusiyanın Ermənistana silah ixracını bərpa etməsini faktiki olaraq Minsk qrupunun xortlaması kimi də qiymətləndirmək olar. Bu addım 2020-ci ilin 44 günlük müharibəsindən sonra tarixin arxivinə atılmış sözdə vasitəçilik missiyasının bərpasına yönəlik gediş deyilmi? Kollektiv Qərb ABŞ və Fransa qismində Ermənistanla Azərbaycan arasında yekun sülhün əldə edilməsinə hər vasitə ilə maneələr yaradır. Bu tərəfdən isə Rusiyanın məlum addımı faktiki olaraq Minsk qrupunun yenidən zühur etməsinə rəvac verir.

Azərbaycan torpaqlarının uzun illər boyunca erməni işğalında qalmasının əsas təminatçısı Minsk qrupu olub. Bu müddət ərzində biz dünyanın ərkəsöyün yetirməsi Ermənistan naminə Azərbaycanın tarixi ədaləti bərpa etməsinə bütün vasitələrlə qarşı çıxdığını müşahidə etmişik. Bu ədalətsizliyin müxtəlif izahları var: məsələn, antitürk və ya xristian klubu. Müsəlman İranın Zəngəzur dəhlizinə qarşı çıxmasının Qərbdə anlaşma ilə qəbul edilməsini və tərəflərin situativ müttəfiq rolunda çıxış etmələri faktını da nəzərə alsaq, həmin mexanizmin yenidən işə düşdüyü qənaətinə gələ bilərik. Ancaq burada ayrıca şərh olunası iki vacib məqam var: 10 noyabr bəyanatının 9-cu bəndinə əsasən, dəhlizin məhz Rusiyanın nəzarətində olması və 2022-ci ilin fevralında, Ukrayna müharibəsindən günlər öncə Rusiya ilə Azərbaycan arasında imzalanmış müttəfiqlik sazişi. Belə çıxır ki, 9-cu bəndin icra olunması üçün çalışan və az qala bütün dünyanın təzyiqlərinə sinə gərən yalnız Azərbaycandır. Rusiyanın Ermənistana silah satışını bərpa etməsi fonunda bu, bizə lazımdırmı?



BİR TƏRƏFDƏN TƏLƏB AZALIR, DİGƏR TƏRƏFDƏN SİYASİ FAKTORLAR AKTİVDİR

# NİKBİN OLMAYAN PROQNOZLAR

Neftin qiyməti qısamüddətli sabitlikdən sonra yenidən dalğalanmağa başlayıb. Tendensiya ucuzlaşma istiqamətindədir. Bu tendensiyanın gələn il də davam edəcəyi proqnozlaşdırılır.



ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az

Dünya birjalarında neft ucuzlaşmaqda davam edir. "Brent" markalı neftin bir bareli bəzi günlərdə hətta 70 dollardan da aşağı düşüb. Bu tendensiyanın davamlı ola biləcəyi ilə bağlı proqnozlar da var. Bəs bu ehtimallar nə dərəcədə əsaslıdır? Neft bazarını qarşıda nə gözləyir?

### BÜDCƏDƏ 70 DOLLARDIR

Qeyd edək ki, Azərbaycanın 2025-ci il üçün icmal və dövlət büdcələrinin layihələri hazırlanarkən "Azeri Light" markalı neftin bir barelinin qiyməti 70 ABŞ dolları götürülüb. Bu barədə Maliyyə Nazirliyinin 2025-ci ilin icmal və dövlət büdcələrinin ilkin göstəricilərinə dair açıqlamasında bildirilib. Bu, 2024-cü illə müqayisədə 5 ABŞ dolları azdır. İqtisadiyyat Nazirliyi tərəfindən cari ilin avqust ayında təqdim olunan proqnozlara əsasən, baza ssenarıdə neftin bir barelinin orta illik ixrac qiyməti 2026-2028-ci illər üçün 65 ABŞ dolları səviyyəsində nəzərdə tutulub.

### SİYASİ TƏSİRİN GÜCÜ

Millət vəkili Vüqar Bayramovun sözlərinə görə, neftin uzun müddətdir ucuzlaşmasının əsas səbəbləri dünya neft bazarında baş verən bir sıra proseslərdir: "Neftin dünya bazar qiymətinin ucuzlaşması qlobal bazarda neftə olan tələbin azalması, eləcə də hasilatın artması ilə bağlıdır. Dünya neft bazarında volatillik müşahidə edilir. Bir tərəfdən tələb azalır, digər tərəfdən isə siyasi faktorlar kifayət qədər aktivdir. Xüsusən ABŞ-dan gələn mesajlar, seçkiqabağı kampaniyada verilən vədlər neft bazarına təsir göstərir. Bu da nəticə etibarilə azalmalara gətirib çıxarır. Neftin dünya bazar qiymətinin növbəti dövrlərdə dəyişməsi həm OPEC+un hasilatla bağlı qərarından, eləcə də digər siyasi təsir alətlərindən asılı olacaq. Amma OPEC+ yenə də bazara təsir imkanlarını qoruyub saxlayır".




## UCUZLAŞMA NƏ ZAMANA QƏDƏR DAVAM EDƏCƏK?

V.Bayramov bildirdi ki, ucuzlaşmanın nə qədər davam edəcəyi məhz bu proseslərdən asılı olacaq: "Əgər OPEC+ hasilatın azaldılması ilə bağlı qərar verərsə, bu halda neftin dünya bazarındakı qiymətində stabilləşmə müşahidə edə bilərik. Əks halda qiymət azalmalarının davam edəcəyi gözlənilir. Yəni ucuzlaşmanın nə qədər davam edəcəyi OPEC+un mövqeyindən asılı olacaq. Eyni zamanda, ABŞ-da seçkilərin nəticələri də neft bazarına təsirsiz ötüşmür".

### DAXİL OLAN VALYUTANIN HƏCMİNƏ TƏSİR GÖSTƏRİR

Millət vəkili düşünür ki, Azərbaycan kimi neft hasil edən ölkələr neftin qiymətinin optimal olmasına meyllidir: "Azərbaycanın ixracının 80 faizini neft və neft məhsulları təşkil edir. Ona görə də, biz neft hasil edən və ixrac edən ölkə olaraq qiymətin optimal və stabil olmasında maraqlıyıq. Bizim üçün neftin bir barelinin qiymətinin 80 dollar ətrafında dəyişməsi məqbul hesab olunur. Qiymətlər yüksək olanda ölkəyə daha çox valyuta daxil olur. Təbii ki, qiymətlərin azalması valyutanın həcminə əks-təsir göstərir. Təklif edə bilərik ki, əvvəlki illərdə olduğu kimi, konservativ siyasət davam etdirilsin. Büdcədə neftin qiymətinin yüksək götürülməsi mövcud neft bazarındakı volatillik aspektindən arzuolunan deyil. Ona görə konservativ siyasətə üstünlük verilməsi daha məqsədəuyğundur".



Vüqar Bayramov
**Foto:** Firudin Səlimov Global Media Group

## MÜHARİBƏ RİSKİ AMİLİ QİYMƏTLƏRDƏ 15-20 FAİZDİR

İqtisadçı Xalid Kərimli isə neftin qiymətinə müharibələrin təsir qüvvəsindən danışdı: "Dünya birjalarında neftin qiymətinin ucuzlaşmasının səbəbi tələbin gözləniləndən zəif olmasıdır. ABŞ-də neft ehtiyatları artır, Çinin neft istehlakı ilə əlaqədar göstəricilər tələbatın aşağı düşməsinə işarə edir. Bu səbəbdən qiymətlər aşağı düşür. Həmçinin neftin qiymətində müharibə amili də rol oynayır. Yaxın Şərqdə vəziyyət stabilləşən kimi neftin qiymətində enmələr müşahidə edilir. Neftin qiymətində müharibə riski faktoru 15-20 faizdir. Yaxın Şərqdə, İran körfəzində müharibə riski artanda neftin qiyməti yüksəlir. Yəni qiymətlər tələbatdan və hərbi-siyasi məsələlərdən asılı olaraq dəyişir. Həmçinin OPEC-in bazarı tənzimləməsi də burada ciddi rol oynayır. Dünya iqtisadiyyatı ilə bağlı narahatlıqlar var. Hətta yaxın zamanda ABŞ-də böhran riski də mövcud idi. Qiymətlərin ucuzlaşması bu faktorlardan asılıdır".

İqtisadçının fikrincə, mövcud durum davam etdikcə neft daha da ucuzlaşacaq: "Ümumi şəkildə neftin gələn il bu ildən daha ucuz olacağına dair gözləntilər mövcuddur. Çünki bu il qiymətlərin keçən ildən daha ucuz olacağı ilə bağlı müzakirələr var idi. Onlar da hazırda özünü doğruldur. Həmçinin alternativ enerji, elektrik mühərrikli avtomobillər, istehsalda ekoloji məsələlər ortaya çıxdıqca neftin uzunmüddətli dövrdə qiyməti ucuzlaşmaqda davam edəcək".

X.Kərimli bildirdi ki, dünya bazarındakı ucuzlaşmanın Azərbaycan bazarına elə də təsiri olmasa da, ucuzlaşma Neft Fondunun gəlirlərinə, ölkənin tədiyyə balansına birbaşa təsir göstərir.



Xalid Kərimli

“KASPİ” QƏZETİNİN “AİLƏ” RUBRİKASININ BUDƏFƏKİ QONAQLARI MUSİQİÇİLƏR ABUZƏR VƏ KARENDİR

# YOLLARI MUSİQİDƏ KƏSİŞƏN CÜTLÜK




ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az

**Karen Danger-Manafzadə:** “Əvvəldən rəqslərinizi bilmirdim, lakin toyumuzdan öncə Abuzərin anası mənə Azərbaycan xanımlarının necə rəqs etdiyini göstərmişdi”.

UEFA Millətlər Liqasının qrup mərhələsində Slovakiya-Azərbaycan qarşılaşmasından öncə Azərbaycan himninin canlı səsləndirilməsi çoxumuzu qürurlandırdı. Himnimizi səsləndirən Avstriyada yaşayan alman-kuba əsilli vokalçı Karen Danger-Manafzadə idi. Karen Danger-Manafzadə dünyanın bir çox ölkəsində opera, operetta, film layihələrində yer alan, böyük auditoriyalar qarşısında çıxış edən, beynəlxalq müsabiqələr laureatı vokalist, aktrisa və mahnı bəstəkarıdır. Karen beynəlxalq arenada verdiyi konsertlərlə yanaşı, hazırda ingilis, alman, ispan və Azərbaycan dillərində mahnılar bəstələyir. Karen Azərbaycanın Əməkdar artisti, dünyaşöhrətli pianoçu İslam Manafovun oğlu, pianoçu, dirijor, bəstəkar Abuzər Manafzadənin həyat yoldaşıdır. Abuzər beynəlxalq müsabiqələrdə 18 mükafat qazanmış pianoçu, dirijor, bəstəkardır. Vyana Musiqi və Səhnə Sənətləri Universitetinin dirijorluq fakültəsindən məzun olan ilk azərbaycanlıdır.

Beləliklə, “Kaspi” qəzetinin “Ailə” rubrikasının budəfəki qonaqları Abuzər və Karendir.

**“MUSİQİSİ İLƏ QƏLBİMİ QAZANDI”**

Hər ikisi musiqiçi olan bu cütlüyün yolları konservatoriyada kəsişib. Karen tanışlıq hekayələrini bizimlə bölüşdü: “Biz ilk dəfə bir-birimizi konservatoriyada gördük. Hər yerdə Abuzərin konsertinin afişaları var idi. Mən onun konserti olduğunu bilirdim. Lakin o, məni dəvət etdikdə özümü bilməməzliyə vurdum. Şirin, yaxşı oğlan idi, amma mən ilk anda ciddi heç bir şey düşünmədim. Sadəcə “konsertə dəvət edir, gedim”, - dedim. Konsertə rəfiqəmlə getmişdim. Abuzər konsertdə Ludviq van Bethovenin “Appasionata” əsərini ifa etdi. Mən hələ belə bir şey görməmişdim. O, üç dəqiqə pianoda ifa etdikdən sonra mən rəfiqəmə dönüb dedim ki, bu oğlan ilə mütləq evlənəcəyəm. Konsertdən öncə məni “Facebook”da tapmışdı və özü, uğurları, ailəsi haqqında məlumat vermişdi. Abuzər konservatoriyaya müraciət edirmiş kimi özü haqqında məlumat göndərmişdi (gülür). O, mənə ailəsi haqqında məlumat verdikdə onlara heyran qalmışdım. O zamanlar 19 yaşım var idi və qarşımda tanınmış Manafzadə ailəsini görəndə bir az utanmışdım”.

> *“Abuzər Manafzadə: Karen çox çalışqan insandır, onun əzminə heyran qalırdım. Səhər saat beşdən oyanırdı ki, Azərbaycan dilini öyrənəcəyəm. Qısa müddətdə də öyrəndi.”*

**“POZİTİVLİYİNƏ VURULDUM”**

Karen ilk başda ciddi düşünməsə də, Abuzər artıq evlilik xəyalları qururmuş: “Kareni ilk dəfə görəndə gülümsəməsi çox xoşuma gəldi. Onun pozitivliyinə vuruldum, konsertimə dəvət etdim. Konsertə dəvət edəndə artıq ciddi düşünməyə başlamışdım. İlk baxışdan aşiq olmuşdum, davamlı onu düşünürdüm, gözlərindən, baxışlarından, hərəkətlərindən, danışığından çox gözəl ürəyi olduğunu anladım. Elə o anda düşündüm ki, Karen çox gözəl həyat yoldaşı ola bilər. Hər zaman gülümsəyir, daim pozitivdir. İnsanlara, heyvanlara, təbiətə çox böyük hörmət və sevgi ilə yanaşır. Karenin bir şüarı var ki, “hər şeyi sevgi ilə etmək lazımdır”. İllər keçməsinə baxmayaraq ilk gördükdə nə düşünmüşdümsə, hələ də elədir. Hisslərimdə və düşüncəmdə yanılmadığımı zamanla anladım”.



Karen isə Abuzərin xasiyyətini öyrəndikdən sonra bilib ki, onun yarıdır: “Abuzərin öncə pianoda ifasını çox sevmişdim. Xarakterini öyrəndikdən, onun centlmenliyini, mədəniyyətini gördükdən sonra isə qərar verdim ki, həqiqətən də o, mənim həyat yoldaşım olmalıdır. Almaniyada böyümüşəm, orada belə centlmenlik görməmişdim”.

**“KARENİN HEÇ NƏDƏN XƏBƏRİ YOX İDİ”**

Abuzər deyir ki, Karenə evlilik təklif edəndə elə həyəcanlanıb ki, heç konsertlərdə belə həyəcan keçirmir: “İki il müddətində bir-birimizi daha da yaxından tanıdıq. Artıq bir-birimiz haqqında tam ciddi düşünürdük. Lakin mən Karenə sürpriz etmək istəyirdim. Bir gün dedim ki, hazırlaş, bir yerə gedirik. Vyanadan Zalsburq şəhərinə qatar bileti almışdım. Həmin gün onun doğum günü idi. Bütün günü orada gəzdik. Karenin heç nədən xəbəri yox idi. Özəl bir restorana getdik, hansı ki, bütün şəhərin mənzərəsini oradan görmək mümkündür. Həmin restoranda ona evlənmə təklif etdim. İspan dilində ona dedim ki, “sən mənim həyatımın eşqisən, mənimlə evlənərsən?”

Abuzərin bu sürprizi Karen üçün doğum günündə aldığı ən gözəl hədiyyə olub: “Abuzər çox həyəcanlı idi. Hətta mən ondan bir neçə dəfə soruşdum ki, Abuzər, nəsə problem var? Davamlı telefona baxırdı. Qorxurmuş ki, ispan dilində cümlələri unudar. Unutmamaq üçün gözü telefonda imiş. Abuzərin bu sürprizinə şok olmuşdum”.

**İKİ MUSİQİÇİNİN AİLƏ HƏYATI**

Deyirlər, musiqiçilər romantik olurlar. Karenin sözlərinə görə, həyatlarının böyük bir qismini musiqi tutsa da, bir-birlərinə zaman ayırmağı da unutmurlar: “İki musiqiçinin həyatı gecə-gündüz musiqi və məşqlərdən ibarətdir. Mən oxuyuram, Abuzər piano çalır, hər gün yeni bəstələr üzərində işləyirik. Çalışırıq heç olmasa həftədə bir dəfə bərabər planlar quraq. Bizim ortaq xüsusiyyətimiz musiqi və idmandır. Hər ikimiz idmanı çox sevirik. Bərabər idmanla məşğul oluruq, kinoya gedirik. Meşədə gəzməyi və bərabər dondurma yeməyi də sevirik”.

Abuzər: “Karen bəzən kiçik sürprizlər edir. Onun səhərlər məşqi olur. Səhər kofe içməyi sevdiyim üçün getməmişdən mənə kofe hazırlayır. Oyandıqda kofemi hazır görürəm. Yanında da kiçik bir not yazıb qoyur”.

**“HƏR UĞURLU KİŞİNİN ARXASINDA ONUN XANIMI DAYANIR”**

Abuzər deyir ki, onların uğurlarının sirri daim bir-birilərinə dəstək olmalarıdır: “Məsələn, mən pandemiya zamanında Karenə piano çalmağı öyrədirdim. O da məni idmanla məşğul olmağa təşviq edir. İşlərimin çoxluğundan bəzən idmana vaxt ayıra bilmirəm. Amma Karen nizam-intizamlı olduğu üçün məni məcbur edir. Hər zaman bir-birimizi irəliyə aparmağa çalışırıq. Öz ailəmizdə də valideynlərimin bir-birinə dəstək olduğunu görmüşəm. Atamın və bütün ailəmizin uğurlarının arxasında hər zaman anam yer alıb. Hətta belə bir ifadə də var ki, hər uğurlu kişinin arxasında onun xanımı dayanır. Mən bu fikrə inanıram”.

Cütlüyün toyları həm Avstriyada, həm də Azərbaycanda keçirilib. Karen bizimlə Azərbaycandakı toylarının təəssüratlarını bölüşdü: “Bu dərəcədə böyük toy olacağını düşünmürdüm. 400 nəfər qonaq var idi. Bəlkə Azərbaycan üçün bu elə də böyük rəqəm deyil. Amma mən belə bir şey görməmişdim. Əvvəldən rəqslərinizi bilmirdim, lakin toyumuzdan öncə Abuzərin anası mənə Azərbaycan xanımlarının necə rəqs etdiyini göstərmişdi. Azərbaycanın xanımlarının rəqsi çox eleqant və möhtəşəmdir”.

**“AZƏRBAYCANDA ÖZÜMÜ ŞAHZADƏ KİMİ HİSS ETDİM”**

Karen bir neçə dəfə ölkəmizdə olub: “Biz ancaq Bakıda olmuşuq. Bakını çox sevdim. Memarlıq abidələri sənət əsəridir, binalar hamısı çox gözəldir. Abuzərdən öncə Azərbaycanı “Eurovision” müsabiqəsindən tanıyırdım. Azərbaycan mənim üçün çox özəl və gözəldir. Yeməkləri tamamilə fərqlidir, insanları çox mədənidir. Azərbaycanda özümü şahzadə kimi hiss etdim. Hara gedirdim, mənim üçün qapı açırdılar. Düşünürəm ki, Azərbaycan xalqı çox açıq fikirli, tolerantdır, hər bir dinə, dilə çox hörmət edir. Gələcəkdə çox istəyərik Qarabağa gedək. Orada konsert proqramı ilə çıxış etməyə də çox şad olarıq”.

**“KARENİN DİL ÖYRƏNMƏKLƏ BAĞLI QABİLİYYƏTİNİ GÖRÜRDÜM”**

Karenin sözlərinə görə, onun dilimizdə səsləndirdiyi ilk əsər də məhz himnimiz olub: “Mənim Azərbaycan mahnıları ilə tanışlığım Abuzər sayəsində olub. Bizim ilk dəfə Amsterdamda konsertimiz olduqda səhnədə Azərbaycan himnini səsləndirməyimə o qərar verdi. Bu, Azərbaycan dilində səsləndirdiyim ilk əsər idi. Abuzərə çox təşəkkür edirəm ki, o zaman mənə inandı. Bununla da Azərbaycan musiqisi, sonra isə dili ilə tanış oldum”.

Abuzər əvvəldən xanımının bacarığını sezibmiş: “Karenə müraciət etdim ki, tədbirdə himnimizi və digər əsərlərimizi səsləndirmək istəyərsən? Təklifim ona da sürpriz oldu. Karenin dil öyrənməklə bağlı qabiliyyətini görürdüm. Bilirdim ki, dil öyrənməyə qarşı necə qətiyyətli və həvəslidir. Əmin idim ki, o, bu məsuliyyətli işi ən gözəl şəkildə həyata keçirəcək. Hazırda Karenin mahnılarımızla və dilimizlə bağlı əldə etdiyi uğurlara baxdıqda da deyə bilərəm ki, yanılmamışdım”.

**“ÖYRƏNƏNƏ QƏDƏR ÇOX ÇƏTİN İDİ”**

Karen mahnılarımızı ifa etsə də, dilimizdə danışa bilməyib. Lakin qarşısına məqsəd qoyub və buna ən qısa zamanda çatıb: “Mən Azərbaycan mahnılarını oxuyurdum. Lakin sizin dilinizdə “salam” belə deyə bilmirdim. Səhnədə oxuduğun dili anlamamaq düzgün deyil. Abuzərin ailəsi ilə də öz dillərində danışmaq istəyirdim. Özümə dedim ki, mütləq Azərbaycan dilini öyrənməliyəm. Düzdür, mahnıları səhnədə ifa etmədən öncə Abuzərdən mənalarını soruşurdum. Amma dili tam bilmədiyim üçün stress keçirirdim. Abuzər və dil müəlliminin dəstəyi ilə yavaş-yavaş öyrəndim. Öyrənənə qədərki yol çox çətin idi”.

**“HƏR GÜN BƏLKƏ 50 DƏFƏ BU SÖZDƏN İSTİFADƏ EDİRƏM”**

Karen sonradan Abuzərin həm də tələbəsi olub. Abuzər tələbəsinin necə əzmlə dilimizi öyrənməsindən bəhs etdi: “Karen həmişə mahnılarımızı oxumamışdan öncə gəlib məndən mənalarını öyrənirdi. Mahnılarımızdakı sözləri izah edirdim. Karen çox çalışqan insandır, onun əzminə heyran qalırdım. Səhər saat beşdən oyanırdı ki, Azərbaycan dilini öyrənəcəyəm. Qısa müddətdə də öyrəndi. O, gəlib mənə “sizin dili öyrənmək istəyirəm” dediyi zaman sevincimdən havalara uçdum deyə bilərəm. Çünki doğma dilimizdə sevdiyim insanla ünsiyyət qurmaq, ona sevgimi çatdırmaq və eyni şəkildə bu sözləri ondan eşitmək çox gözəl bir duyğudur. Karenin dilindən, özü də Azərbaycan dilində sözlərimizi eşitmək mənim qəlbimi titrədir”.

Karen deyir ki, ona Azərbaycan dilində ən maraqlı gələn “nazlı” sözü idi: “Çünki o söz mənim dilimdə yoxdur. Bunu başa düşmək çox çətin idi. Abuzərdən soruşurdum ki, “nazlı” nə deməkdir? O da tam başa sala bilmirdi, çünki tam ifadə etmək mümkün deyildi. Ən sevdiyim söz isə “canım”dır. Hər gün bəlkə 50 dəfə bu sözdən istifadə edirəm”.



## KARENİN DİLİMİZDƏ BƏSTƏLƏDİYİ İLK MAHNI




“Azərbaycan, gözəlsən” isə Karenin dilimizdə bəstələdiyi ilk mahnısıdır. Abuzərin sözlərinə görə, bu əsər o qədər mükəmməl alınıb ki, hər hansı bir dəyişiklik etməyə ehtiyac qalmayıb: “Karenin Azərbaycan dilində mahnı bəstələməsi hekayəsi çox maraqlıdır. Bir dəfə evə gəldikdə mənə dedi ki, mahnı bəstələmişəm. Düşündüm, yəqin ya ingilis dilində, ya da alman dilindədir. Önümdə sözləri gördükdə adına baxdım ki, “Azərbaycan, gözəlsən” yazılıb və mahnı bizim dildədir. O qədər mükəmməl idi ki, biz ona sonradan heç bir düzəliş etmədik. Dilimizi o qədər gözəl öyrənmişdi ki, artıq mahnı yaza biləcək səviyyədə bilirdi. Buna görə onunla hədsiz qürur duydum”.



Karen isə gələcəkdə Azərbaycan dilində yazdığı mahnıların sayını artırmağı düşünür: “Mahnı bəstələmək istədim. Amma bilmədim ki, bunu hansı dildə edim. Sonra düşündüm və ağlıma Azərbaycanın necə gözəl olduğu gəldi. Qərar verdim ki, mahnını Azərbaycan dilində yazım. Gələcəkdə Azərbaycan dilində başqa mahnılar da bəstələmək istəyərəm”.

**“MƏN DƏ KARENİ TÖVSİYƏ ETDİM”**

Abuzər Karenin Slovakiya-Azərbaycan matçından öncə himnimizi səsləndirməsinə də toxundu: “Slovakiya Futbol Assosiasiyası UEFA Millətlər Liqasında Azərbaycana belə bir jest etmək istədi. Bunu Bratislavadakı səfirliyimizə bildiriblər. Onlar da peşəkar musiqiçi kimi mənimlə məsləhətləşdilər. Mən də Kareni tövsiyə etdim. Çünki o, həm peşəkar vokalistdir, həm də himnimizi dəfələrlə qürurla səsləndirib. Karen öncə böyük auditoriyalar qarşısında çıxış etmişdi, amma bu, ən böyük auditoriya idi”.

# İNZİBATÇILIQDAN TƏDRİSƏ GEDƏN YOL

Məktəb direktorlarının tədrisdən çox inzibatçılığa diqqət ayırması artıq aktual problemə çevrilib. Bəs tədrisin inkişafına mane olan bu məsələni necə tənzimləmək olar?



TƏRANƏ MƏHƏRRƏMOVA
taranamaharramova@kaspi.az

"Tədrisin istənilən səviyyədə davam etdirilməsi üçün müəllim, məktəb və direktora nə mane olur? Görünən odur ki, sanki məktəbdəki təlim bir tərəfdə qalıb, inzibati işlər əsas olub. Məktəb direktorları inzibati işə pedaqoji işə sərf olunan vaxtdan daha çox məşğul olurlar". Təhsil işçilərinin ənənəvi sentyabr konfransında səslənən bu fikirlər ümumən ümumtəhsil məktəblərində direktorların öhdəliyi məsələsini gündəmə gətirib. "Necə edək ki, pedaqoqlarımız şagirdlərin təlimi ilə daha çox məşğul olsun?" sualına cavab axtarışı fonunda elm və təhsil naziri Emin Əmrullayev həmçinin mayın 31-dən sonra məktəblərdə dərs keçirilməməsi məsələsini də qabardıb: "Tədris ilinin bitməsinə qalan son iki həftədəki səmərəlilik aşağı düşür. Həmin ərəfədə sanki yay tətilinə tələsmək təəssüratı yaranır".

Bəs tədrisin inkişafına mane olan bu kimi məsələləri necə tənzimləmək olar?

### "BU İŞLƏRİ KƏNARA QOYMAQ QEYRİ-MÜMKÜNDÜR"

Millət vəkili Ceyhun Məmmədovun fikrincə, inzibati işlər də məktəbin əsas fəaliyyətindən biridir və bu işləri kənara qoymaq qeyri-mümkündür. Əks halda, bu, əlavə problemlər yaradacaq: "Əslində, məktəblərin nəzdində inzibati işləri görə biləcək kadrlar var və onlar bu işlərlə məşğuldurlar. Bu işlər daha çox həmin kadrlara həvalə olunmalıdır. Məktəb rəhbərliyi daha çox tədris və təlimlə məşğul olmalıdır".

### "MƏKTƏBLƏRDƏ REPETİTORLUĞUN QARŞISI ALINMALIDIR"

Şagirdlərin əlavə hazırlıq məsələsinə gəlincə, millət vəkili hesab edir ki, bununla bağlı xüsusi işlərin görülməsinə ehtiyac var: "Qarşıda duran əsas məqam odur ki, məktəblərdə repetitorluq fəaliyyətinin qarşısı alınmalıdır. Bu prosesdə həm inzibati işlər görülməli, həm də təbliğat işləri aparılmalıdır. Bu gün reallıq ondan ibarətdir ki, məktəblərimizdə repetitorluğu bu və ya digər formada həmin təhsil ocaqlarında çalışan müəllimlərin özləri həyata keçirirlər. Yəni müəllimlər tədrisi elə bir formada həyata keçirməlidirlər ki, uşaqlar kənara getməsinlər. Bəzən müəllimlər özləri məqsədli şəkildə təlim prosesini elə həyata keçirirlər ki, uşaqlar repetitor hazırlığına cəlb olunsunlar. Biz hər şeydən öncə məktəbdə tədrisin keyfiyyətini artırmalıyıq".



### "DİREKTOR DİQQƏTİ TƏDRİSİN İDARƏ OLUNMASINA YÖNƏLTMƏLİDİR"

Əməkdar müəllim, Amonaşvili Humanist Pedaqogika Akademiyasının professoru Asif Cahangirov bir çox məktəb direktorlarının təlim-tədris prosesinin təşkili və idarə olunmasında zəif iştirakı haqqında nazirin səsləndirdiyi iradın real vəziyyəti tam əks etdirdiyini təsdiqləyir: "Açığını desək, bu günün direktorları məktəbdaxili həyatın sayı, bəlkə də, yüzü keçmiş sahəsinə cavabdehdirlər. Hansısa kağız parçasının dəhlizdə yerə atılmasından, iki şagird arasında münaqişənin yaşanmasından, səlahiyyətli və səlahiyyətinə aid olmayan müxtəlif qurumların yerli və yersiz sorğu tələblərinin rəsmi cavablandırılmasından tutmuş şagird davamiyyəti, kargüzarlığın təşkili, valideyn narazılıqlarının dəf edilməsi və s. qədər – hamısı onların öhdəsindədir. Halbuki direktorun ən başlıca vəzifəsi təhsil keyfiyyətinin müasir tələblərə uyğun təminatı, təlim-tədris prosesinin optimal təşkil olunmasıdır. Yəni məktəbdə müəllimlərin şagirdləri keyfiyyətli öyrətməsi və hər bir şagirdin bu prosesdən maksimum dərəcədə yararlanması daha öndə olmalıdır. Direktor diqqəti daha çox texniki məsələlərə, məsələn, jurnalda hansısa rəqəmin səhv yazılması, hansısa pozuntuya yol verilməsi və s. deyil, təlim-tədris prosesinin səmərəli idarə olunmasına yönəltməlidir. Düşünürəm ki, direktorun fəaliyyətinə dair bütün detallar, hətta cüzi görünən məsələlər belə, açıqlanmaqla yeni reqlamentlər təsdiqlənməli, bununla da, onlar ikinci dərəcəli işlərdən rəsmi qaydada azad olunmalıdırlar".

A.Cahangirov hesab edir ki, məktəb direktorlarının peşəkar inkişafına dəstək verilməli, müasir məktəb direktoru və onun səriştələri, strateji planlaşdırma, daxili monitorinq, təlim-tədris prosesinin təşkili, şagird qiymətləndirməsi və digər mövzular üzrə onlara xüsusi təlimlər keçirilməlidir".


Ceyhun Məmmədov


Asif Cahangirov

Foto: Rufat Mikayilov/Global Media Group

### BURAXILIŞ İMTAHANLARININ VAXTI DƏYİŞDİRİLMƏLİDİR

Ekspert mayın 31-dən sonra məktəblərin buraxılış sinif şagirdlərinin dərslərə gəlməməsi məsələsinə də münasibət bildirib: "Əslində bu problem mayın 31-dən sonra deyil, mart ayından başlayaraq yaşanır. Həmin dövrdə 3 fənn üzrə mərkəzləşdirilmiş buraxılış imtahanları və ali məktəblərə qəbul imtahanları keçirilir. İmtahanların mart-may aylarında təşkilinin xeyrinə nə qədər arqumentlər gətirilsə də, reallıq budur ki, imtahanlardan sonra şagirdlərdə dərslərə maraq qalmır".

A.Cahangirov buraxılış və ali məktəblərə qəbul imtahanları tarixlərinin ənənəvi qaydalara qaytarılmasının tərəfdarıdır: "Məktəbdə imtahanlar yalnız tədris müddəti bitəndən sonra keçirilməlidir. Buraxılış imtahanlarının iyunun 15-dən sonra, qəbul imtahanlarının isə iyul ayında keçirilməsi daha məqsədəuyğun olardı".

### MƏKTƏBLƏRDƏ TƏLİM-TƏDRİS PROSESİNİN GÜCLƏNDİRİLMƏSİ VACİBDİR

Elm və Təhsil Nazirliyi yanında İctimai Şuranın katibi Günay Əkbərova məktəblərdə təlim-tədris prosesinin gücləndirilməsini vacib hesab edir: "Yeni tədris metodları və kitabları əvvəlki dərsliklərə və metodlara görə daha dolğun, daha öyrədicidir. Sadəcə, müəllimlərə yeni vəsaitlərin daha düzgün, təlimyönümlü istifadəsi və repetitorluğa ehtiyac duymadan mənimsətmə yolları üzərindən təlimlər verilməsinə ehtiyac var".


Günay Əkbərova

Foto: Rufat Mikayilov/Global Media Group

# Uşaqları cinayətlərdən NECƏ QORUMALI?



**Uşaq qətlləri mövzusu Azərbaycan cəmiyyətində narahatlıqla qarşılanır. Yaxın keçmişdə ölkəmizdə tükürpərdici uşaq cinayətləri qeydə alınıb. Bəs uşaqlara qarşı cinayətlərin qarşısının alınması üçün hansı əlavə addımlar atıla bilər?**

SEMRA ƏLƏKBƏROVA

Türkiyənin Diyarbəkir vilayətində avqustun 21-də yoxa çıxan və 19 gün sonra kənd yaxınlığındakı dərə yatağında çuvalın içində cəsədi tapılan 8 yaşlı Narin Güranla bağlı cinayət işi geniş rezonans doğurub. Uşaq qətlləri mövzusu Azərbaycan cəmiyyətində də narahatlıqla qarşılanır. Belə ki, yaxın keçmişdə ölkəmizdə də tükürpərdici uşaq cinayətləri qeydə alınıb.

Bəs uşaqlara qarşı cinayətlərin qarşısının alınması üçün hansı əlavə addımlar atıla bilər?

Türkiyədə uşaq qatillərinə edam cəzasının verilməsi mövzusu getdikcə daha çox səsləndirilməyə başlayır. Bu, çarədirmi?

### "EDAMIN ÖZÜ DƏ ƏDALƏTLİ OLMAYA BİLƏR"

"Təmiz dünya" Qadınlara Yardım İctimai Birliyinin sədri Mehriban Zeynalovanın fikrincə, bəzən edam qərarı da ədalətli olmur: "Ümumiyyətlə, hansısa hadisələrdə, əsasən də uşaq və qadınlara qarşı baş verən qətl hadisələrində emosional çıxış və təklifləri məqbul hesab etmirəm. Bu o demək deyil ki, baş verən hadisələrə biganəyəm. Sadəcə, edamın özünün ədalətli olub-olmaması ilə üz-üzə qalmağın təhlükəsindən narahatam".



Mehriban Zeynalova

Foto: Tapdıq Abdullayev/ Global Media Group

Ekspert qeyd edib ki, edam, ya da ağır cəzalar heç də o silsilədən olan cinayətlərin törədilməsinin qarşısını almır: "Tutaq ki, hansısa ölkələrdə oğurluq edənin qolunu kəsiblər. Lakin bu cəza oğurluğun qarşısını almağa kömək etmir. Mən zorakılıq törətmiş şəxslərə ömürlük cəzanın verilməsinin tərəfdarıyam. Keçmişə qayıtmaq yox, yeniliyi yaratmaq, təhlükəsizlik sistemini gücləndirmək, insanlara mədəni davranışı aşılamaq lazımdır. Uşaqları gözüaçıq böyütməmək, onları ətrafda baş verənlərdən təcrid etməklə biz onları real həyatda ola biləcək təhlükələrdən xəbərsiz edirik. Ailə münasibətlərində uşaqların bütün fikirlərini, problemlərini valideynlə bölüşməsi üçün normal mühit yaratmalıyıq".

## "ƏKS HALDA BU KİMİ CİNAYƏTLƏR DAVAM EDƏCƏK"

Fazil Mustafa isə düşünür ki, uşaq qatillərinə ölüm hökmü verilməsi doğru yanaşmadır: "Uşaq qatillərinə ölüm hökmü kəsilməlidir. Bəzi cinayətlərdə bu addımın atılmasını düşünə bilərik. Xüsusilə, hamilə qadınların öldürülməsi, uşaq cinayətləri kimi qətllərdə ölüm hökmü nəzərdə tutula bilər. Lakin bu, əvvəlcə ictimai müzakirədən keçməlidir. Çünki dövlətin cəza siyasətində qəbul etdiyimiz müəyyən öhdəliklər var. Bu öhdəliklərdən də yayınmaq olmaz. Bütün hallarda bu cür cinayətlərə görə cəzalar ciddiləşməlidir. Ümumiyyətlə, cəmiyyətin bu məsələlərdə həssaslığı çox önəmlidir. Türkiyədə də biz bu həssaslığı görürük. Lakin bu, çox vaxt keçici həssaslıq olur. Şərq toplumlarında insanların hər məsələyə emosional baxışı var. Bu məsələləri qalıcı problem kimi saxlamaq üçün ilk növbədə təhsil sistemi mükəmməl olmalıdır. Uşaqlara qarşı cinayət törədənlərin əksəriyyəti məhz cəmiyyətin tərbiyə etmədiyi, dəyərləri mənimsəməmiş insanlardır. Biz elə etməliyik ki, bu dəyərləri mənimsəyən, insan azadlığına, uşaq və qadın haqlarına hörmətlə yanaşan cəmiyyət formalaşdıraq. Hər şeyin əsası budur. Əks halda bu kimi cinayətlər davam edəcək".

### "DEMƏLİ, BİZ ÖLÜM HÖKMÜNÜ BƏRPA EDƏ BİLƏRİK"

"Polisə Dəstək" İctimai Birliyinin sədri, təqaüddə olan polis polkovniki Şəmsəddin Əliyev də düşünür ki, uşaq cinayətləri cəmiyyət üçün ciddi problemdir. Onun fikrincə, bəzi hallarda edam cəzası tətbiq edilməlidir: "Xüsusi amansızlıqla qətl törədənlərə, təcavüz edənlərə qarşı ölüm hökmünün çıxarılmasının tərəfdarıyam. Bu, cəmiyyətdə sağlamlığın qorunması üçün həb ola bilər. Bəzən deyirlər ki, bizdə ölüm hökmü ləğv olunub, amma elə deyil. Azər-baycan Kons-ti-tusiyasının 27-ci maddəsində vətəndaşın yaşama hüququna hansı hallarda xitam verilməsi göstərilib. Vətəndaşların həyat və sağlamlıqlarına qarşı törədilən cinayətlərə, dövlətin konstitusion quruluşuna qarşı törədilən cinayətlərə, xüsusilə, ağır cinayətlərə görə ölüm hökmü tətbiq edilə bilər. Ölkənin konstitusiyasına dəfələrlə edilən dəyişikliklərə, əlavələrə baxmayaraq, 27-ci maddəyə hər hansı bir dəyişiklik edilməyib. Deməli, biz ölüm hökmünü bərpa edə bilərik. Ölüm hökmünün bərpası zamanın və cəmiyyətin tələbidir".



## "MƏKTƏBDƏ, BAĞÇADA MAARİFLƏNDİRMƏ İŞLƏRİ GÜCLƏNDİRİLMƏLİDİR"

Psixoloq Fərqanə Mehmanqızı da edam cəzalarında bəzən günahsız şəxslərin qurban olduğunu düşünür: "İnsanlarda aqressiya, şizofreniya halları da artıb. Aqressiyanın da dərəcəsi var. Bu hadisələrin qarşısını almaq üçün məktəbdə, bağçada maarifləndirmə işləri gücləndirilməlidir. Edam cəzasına gəlincə, kim zəmanət verə bilər ki, cinayət səhv yöndə araşdırılmayacaq və günahsız insan edam edilməyəcək?"

Psixoloqun fikrincə, əgər bu gün cəmiyyətdə, mediada qətl haqqında rahat danışılırsa, bu hallar artacaq: "Sosial mediada cinayətlərdən, intihardan, şiddətdən danışıldıqca kütlədə bu cinayətlərə haqq qazandıranlar da olacaq. Biz nə qədər "yoxdur" desək də, var. Cinayətə haqq qazandıranlar olmasa, cinayətlər olmaz. Aramızda psixoloji problemləri olanlar, şizofreniya xəstələri, natamamlıq kompleksi altında əzilənlər çoxdur. Çox danışılan mövzular cəmiyyətdə adiləşir. Biz bu cinayətləri adiləşdirdikcə daha çox təkrarlanırlar".

### "254 UŞAQ MƏİŞƏT ZORAKILIĞINA MƏRUZ QALIB"

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin Hüquqi-təminat şöbəsinin Məişət zorakılığının qarşısının alınması sektorunun məsləhətçisi İradə Məmmədova bildirir ki, komitəyə daxil olan hər bir müraciət nəzarətə götürülür, zərər çəkmiş şəxslərə dəstək məqsədi ilə dövlət orqanları arasında əlaqələndirmə həyata keçirilir. Onun sözlərinə görə, 2024-cü ilin ilk yeddi ayı ərzində komitəyə məişət zorakılığı ilə bağlı 339 müraciət daxil olub. Məişət zorakılığına məruz qalanlardan 25-i kişi, 303-ü qadın, 254-ü uşaq olub.

# TURŞUNU EVDƏ hazırlayaq, yoxsa hazır alaq?



Havaların sərinləşməsi turşu mövsümünün başlamasından xəbər verir. Amma bu il alıcıları xoş olmayan durum gözləyir. Bazarlarda nə əvvəlki bolluq, nə də ucuzluq müşahidə edilir.

SEVİNC ABBASOVA

Soyuq aylarda yay və payız mövsümü boyunca qış tədarükü üçün hazırlanan turşular süfrələrimizi bəzəyir. Havaların sərinləşməsi turşu mövsümünün başlamasından xəbər verir. Adətən ilin bu vaxtları kələm, pomidor, xiyar, çuğundur, sarımsaq, göy pomidor və sair həm bol, həm də ucuz olur. Amma bu il vəziyyət fərqlidir. Bazarlarda nə əvvəlki bolluq, nə də ucuzluq müşahidə edilir. Demək olar ki, ötən illə müqayisədə qiymətlər iki dəfə artıb. Bəs, görəsən, mövcud vəziyyət turşu bazarına necə təsir göstərib? Qiymətlər hansı səviyyədədir? Evdə turşu hazırlamaq, yoxsa bazardan, marketdən almaq daha sərfəlidir?

### TƏRƏVƏZLƏR NEÇƏYƏDİR?

Azərbaycan mətbəxində adətən pomidor, kələm, xiyar, badımcan, bibərdən hazırlanan turşulara üstünlük verilir. Turşu üçün lazım olan ərzaqların qiymətinə gəlincə, hazırda bazarlarda kələmin bir kiloqramı 70 qəpiyə, çuğundur 90 qəpik-bir manata, kök 1-1,20 manata, sarımsaq 5-6 manata, göy pomidor 1,60-1,80 manata, badımcan 70 qəpik-bir manata, pomidor 1,80-2,80 manata, xiyar 65 qəpik-bir manata, acı bibərin kiloqramı iki manata, şirin bibər 2,50-3,50 manata təklif olunur. 450 ml. üzüm sirkəsinin qiyməti isə 80 qəpikdən başlayır.



### ÇƏKİLƏN XƏRC ARTIB

Yeddi ilə yaxındır ki, turşu biznesi ilə məşğul olan ev xanımı Sədaqət Seydimova da qiymətlərdən narazıdır. Onun sözlərinə görə, məhsulların bahalığı turşuların hazırlanmasına çəkilən xərci xeyli artırıb: "Bu il bazarda əvvəlki illərdəki bolluq yoxdur. Məhsul aldığım topdansatış yerləri də rayonlarda malın az olduğunu deyirlər. Ötən il 30 kiloqramlıq pomidorun yeşiyini 11-12 manata alırdımsa, bu il 35 manatdan almışam. Hava şəraitinin qeyri-sabit keçməsi məhsuldarlığa mənfi təsir göstərib. Məhsul az olduğundan qiymət də bahadır. Nəticədə turşu hazırlanmasına çəkilən xərc artıb".

## "EVDƏ HAZIRLAMAQ DAHA SƏRFƏLİDİR"

Amma həmsöhbətimiz qeyd edib ki, qiymətlərin baha olmasına baxmayaraq, turşunu evdə hazırlamaq daha sərfəlidir: "Marketlərdə, bazarlarda qiymətlər gündən-günə bahalaşır. Elə məhsullar var ki, onların turşusunu evdə hazırlamaq sərfəlidir. Məsələn, üç kiloqramlıq kələm turşusunu hazırlamaq üçün xanımlara təxminən 4-5 manat lazımdır. Amma mağazalarda bu məhsul 10-12 manata təklif olunur. Həm də mağazadan alınan məhsul evdə hazırlanan qədər ləzzətli olmur".



Məhsəti Hüseynova

### MEYVƏ-TƏRƏVƏZİN YERLİ OLMASINA DİQQƏT EDİN

Qida Təhlükəsizliyi Hərəkatının rəhbəri, sağlam qidalanma mütəxəssisi Məhsəti Hüseynova bildirib ki, evdə konservləşdirilmiş məhsul hazırlamaq istəyənlər bir sıra məqamlara diqqət etməlidirlər: "Evdə hazırlanan konservləşdirilmiş məhsullar üçün seçilən meyvə-tərəvəz mütləq şəkildə mövsümi və yerli olmalıdır. Heç bir halda xarab və yaxud əzilmiş olanından istifadə etmək olmaz. Konservləşdirmə üçün istifadə olunan qab xüsusilə şüşə banka olmalı, təmiz şəkildə yuyularaq steril edilməlidir. Qapaqlar daxildən qalaylanmış şəkildə və təzə olmalıdır. Həmçinin həmin tərəvəzlərdən turşu qoyularkən mütləq şəkildə onun hazırlanma prosesində iştirak edən insanın sağlamlıq durumu, əlləri gigiyenik qaydada təmiz olmalı və açıq yara olmamalıdır".

## BU TURŞULARDAN İSTİFADƏ ETMƏYİN

Ekspert vurğulayıb ki, evdə hazırlanan turşular sərin, qaranlıq, quru yerdə uyğun şəkildə saxlanılmadıqda qapaqda şişmələr olur və həmin məhsulu qətiyyən istifadə etmək tövsiyə olunmur: "Bəzən bu kimi məhsulların qapağını açarkən üzərində kiflənmiş möhtəviyyat olur və onu təmizləyib yenidən istifadə edirlər. Bu, birmənalı şəkildə yolverilməzdir. Əgər bankanın hər hansı bir hissəsindən məhsul kiflənibsə, bu, məhsulun tamamilə istifadəyə yararsız olduğunu göstərir. Həmin məhsulun tərkibində olan klostridium-botulinium adlanan maddə var ki, bu, çox toksik təsirə malikdir, hətta ölümə qədər gətirib çıxarır".

### İNFLYASİYADAN TƏSİRLƏNƏN İSTİXANALAR

Qida texnoloqu Ağa Salamov isə turşu hazırlığına ehtiyac görmür. Onun fikrincə, artıq ilin bütün fəsillərində satışda təzə tərəvəzlər olduğundan turşudan istifadəyə ehtiyac qalmır: "O vaxt turşuları mövsümi meyvələr olmadığı üçün bağlayırdılar. İndi ilboyu marketlərdə pomidor, xiyar və digər tərəvəzlər satılır. Ona görə də onların turşusunu bağlamağa ehtiyac yoxdur.



Ağa Salamov

Ola bilər ki, kimlərsə duzlu qidaları sevir. Həmin insanlar turşu tədarükü görə bilərlər. Amma nəzərə almaq lazımdır ki, ötən illə müqayisədə qiymətlər bahalaşıb. Bu, inflyasiya ilə bağlıdır. Xüsusilə istixanalara çəkilən xərclər artıb. Pestisitlərin qiymətinin baha olması, dərmanlama prosesinə çəkilən xərclər istixanalarda yetişdirilən tərəvəzlərin qiymətini artırır. Nəticədə bazarda qiymət artımı müşahidə olunur. Bu isə turşuların hazırlanmasına çəkilən xərcləri artırır".

### "MARKETDƏN, BAZARDAN ALMAQ DAHA AZ XƏRC TƏLƏB EDİR"

A.Salamov bu fikirdə olsa da, ev şəraitində turşu tədarükünün tərəfdarıdır: "Təbii ki, marketdən, bazardan almaq daha az xərc tələb edir. Əslində qida təhlükəsizliyini nəzərə almaqla mən evdə turşu qoyulmasının tərəfdarıyam. Düzgün texnologiya və saxlanma, qapaqların kip şəkildə bağlanılması şərti ilə ev şəraitində hazırlanan turşu daha ləzzətli və dadlı olur. Sənaye üsulu ilə qoyulan turşular da yaxşıdır. Bu turşular daha təhlükəsiz hesab olunur. Çünki hazırlanma prosesinə texnoloqlar tərəfindən nəzarət edilir. Qida təhlükəsizliyi baxımından da etibarlı hesab olunur. Qiymətlərə gəlincə, evdə turşu hazırlamağın sənaye üsulu ilə hazırlanan məhsullara nisbətən maliyyəsi çox olur. Evdə biz tonlarla turşu hazırlamırıq. Amma turşu istehsalı ilə məşğul olan zavodlar xammalı tonlarla aldığından daha ucuz qiymətə əldə edirlər. Bu baxımdan maliyyə xərcləri aşağıdır, satış qiymətləri də münasib olur. Evdə hazırlanmanın əziyyətini də nəzərə alsaq, tövsiyə edərdim ki, marketdən alsınlar. Lakin kimsə əziyyət çəkmək istəyirsə, xərclərə baxmayaraq evdə hazırlaya bilər".

# VAHİD RƏQƏMSAL PLATFORMA YOXDUR



**Orta Dəhliz üzrə əməliyyatların səmərəliliyini artırmaq üçün onun rəqəmsallaşdırılması işləri də aparılır. 2025-ci ildə “Maneəsiz Rəqəmsal Dəhliz” platformasının işə salınması planlaşdırılır.**

Bakıda “Avrasiya Nəqliyyat Marşrutu” Beynəlxalq Assosiasiyasının qurulmasına dair dəmiryol administrasiyaları rəhbərlərinin məşvərət toplantısı keçirilib.

Tədbirdə çıxış edən “Azərbaycan Dəmir Yolları” QSC-nin (ADY) sədrinin rəqəmsallaşma və beynəlxalq investisiyalar üzrə müşaviri Arif Ağayev bildirib ki, Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu (Orta Dəhliz) ilə bağlı əsas problemlərdən biri vahid rəqəmsal platformanın olmamasıdır. “Bu vahid platforma müxtəlif rəqəmsal sistemləri inteqrasiya edə bilərdi. Layihədə iştirak edən ölkələr bu istiqamətdə rəqəmsallaşma ilə bağlı fərqli səviyyələrdə yerləşirlər. Bu isə məlumat mübadiləsi və yüklərin izlənilməsinə dair vahid sistemin tətbiqini çətinləşdirir. Vahid rəqəmsal platformanın olmaması nəticəsində iştirakçı ölkələr arasında koordinasiya ciddi şəkildə qəlizləşir. Bu isə bütün səviyyələrdə tədarük zəncirlərində gecikmələrə səbəb olur”, - deyə o qeyd edib.

### “MANEƏSİZ RƏQƏMSAL DƏHLİZ”

Qeyd edək ki, Orta Dəhlizin cəlbediciliyini və rəqabət qabiliyyətini artırmaq üçün onun bütün uzunluğu boyunca vahid multimodal xidmət yaradılıb. Azərbaycan və Qazaxıstan dəmir yollarının informasiya sistemləri artıq DTC (Digital Trade Corridor) platformasının gömrük modulu olan “Tez Customs” ilə inteqrasiya olunub, Gürcüstan dəmir yolları ilə də oxşar iş planlaşdırılır. Orta Dəhliz üzrə əməliyyatların səmərəliliyini artırmaq üçün onun rəqəmsallaşdırılması işləri də aparılır. 2025-ci ildə “Maneəsiz Rəqəmsal Dəhliz” platformasının işə salınması planlaşdırılır ki, bu da bütün marşrut boyunca sənəd dövriyyəsini, gömrük rəsmiləşdirilməsini və yüklərin izlənməsini vahid ekosistemə birləşdirəcək.



### İNFRASTRUKTUR DAHA DA İNKİŞAF ETDİRİLMƏLİDİR

ADY-nin Rəqəmsal inkişaf departamentinin rəhbəri Andrey İskiriç isə bildirib ki, Orta Dəhlizlə daşınan yüklər artacaq, buna görə infrastrukturu daha da inkişaf etdirmək lazımdır.

Onun sözlərinə görə, məhdud infrastruktur çox baha başa gəlib: “Buna görə infrastrukturla əvvəlcədən məşğul olmaq lazımdır. Bununla yanaşı, biz müştərilərimizin rahat şəkildə sifariş verməsi üçün sifarişdən əvvəl onlayn yoxlamanı təmin etməli, görülən işləri qeyd etməli, müştərilərimizlə hesablaşmaları avtomatlaşdırmalıyıq. Yəni, dəhliz boyunca bütün sənədlər tam rəqəmsallaşmalıdır. Dəhlizimizin hansı inkişaf dövründə olduğunu öyrənməliyik.

Əməliyyat səmərəliliyini artırmaq üçün Orta Dəhlizdə dar boğazlar müəyyən edilməli, onların aradan qaldırılması üçün prioritetlər təyin olunmalıdır. Ümumilikdə, bu kimi istiqamətlərdə ixtisaslaşmış işçi qrupları yaradılmalıdır”, - deyə ADY rəsmisi əlavə edib.



# “Nar” şəhid övladlarını təbrik etdi

“Nar” YAŞAT Fondu ilə birgə bütün ölkə ərazisində yeni dərs ilinin ilk günü münasibətilə qəhrəman şəhidlərimizin övladlarını təbrik edib və onlara zəruri dərs ləvazimatları hədiyyə edib.

Bu təşəbbüslə “Nar” şəhidlərimizin əziz xatirəsini yaşadaraq, onların övladlarının yeni tədris ilinə sevinc və ruh yüksəkliyi ilə başlamasına dəstək olub. “Nar”ın dəstəyi ilə təşkil edilən layihə çərçivəsində 792 şəhidin 1-11-ci siniflərdə təhsil alan 1 365 məktəbli övladına dərs ləvazimatlarından ibarət hədiyyə qutuları xüsusi qürurla təqdim edilib.

“Nar”ın İctimaiyyətlə əlaqələr və korporativ ünsiyyət departamentinin direktoru Hökümə Kərimova məktəbliləri təbrik edib və bildirib: “Məqsədimiz qürur mənbəyimiz olan şəhidlərimizin övladlarının gələcəyə ümidlə baxaraq dərslərinə daha böyük həvəslə və tam hazırlıqlı başlamasını təmin etməkdir. Bu yeni tədris ilində onlara böyük uğurlar arzulayırıq və bilirik ki, hər biri qarşıda çoxsaylı nailiyyətlər qazanacaq”.

“Nar” hər zaman şəhid ailələrinə və onların övladlarına dəstək göstərməyi öz əsas dəyərlərindən biri olaraq qəbul edir. Bu layihə “Nar”ın şəhid ailələrinə qayğı göstərərək vətən qarşısında öz borcunu yerinə yetirmək istiqamətində atdığı növbəti addımdır.

# SOCAR YENİ LAYİHƏLƏR REALLAŞDIRACAQ




**Foto:** Tapdıq Abdullayev Global Media Group

Azərbaycan Dövlət Neft Şirkəti (SOCAR) işğaldan azad edilmiş ərazilərdə bərpa olunan enerji mənbələri sahəsində bir sıra layihələr həyata keçirməyi planlaşdırır. “Report” xəbər verir ki, bunu SOCAR-ın Enerji keçidi, ətraf mühit və dekarbonizasiya seqmenti üzrə vitse-prezidentinin müavini Teymur Quliyev Bakıda keçirilən “Caspian Energy Forum”da çıxışı zamanı bildirib. “Qarabağda və Şərqi Zəngəzurda bərpa olunan enerji mənbələrinin inkişafı ilə bağlı bir neçə layihəmiz var. Onların arasında Böyük Britaniyanın “bp” və Azərbaycan İnvestisiya Şirkəti ilə birgə həyata keçirilməsi planlaşdırılan 240 MVt gücündə “Şəfəq” günəş elektrik stansiyasının tikintisi də var. Bu stansiya faktiki olaraq Səngəçal terminalını enerji ilə təmin edəcək”, - o bildirib.

T.Quliyev əlavə edib ki, geotermal mənbələr əsasında istehsal gücünün yaradılması planlaşdırılır: “Arxivlər araşdırılır. Layihənin işğaldan azad edilmiş ərazilərdə həyata keçirilməsi planlaşdırılır, çünki burada infrastruktur sıfırdan yaradılır. Onun layihələndirilməsi və tikintisi zamanı geotermal resurslardan istifadə imkanları nəzərə alınacaq”.

T.Quliyev vurğulayıb ki, Birləşmiş Ərəb Əmirliklərinin “Masdar” şirkəti ilə birlikdə Laçın rayonunda 100 MVt-a yaxın gücü olan külək elektrik stansiyasının tikintisi layihəsinin də həyata keçirilməsi planlaşdırılır.

Kaspi
Təsisçi
**Global Media Group**
Baş redaktor
**İlham Quliyev**
Redaksiya
Baş redaktorun müavini - **Azad Əliyev**
Müxbirlər – **Təranə Məhərrəmova, Aygün Əziz, Zərif Salmanlı**
Müəlliflər – **Azər Nuriyev, Xanım Aydın, Könül Cəfərli, Sevinc Abbasova, Faiq Tahirov**
Korrektor – **Vüsal Əliyev**
Texniki şöbə
Kreativ direktor – **Murad Arbay**
Dizaynerlər
**Lalə Qasımova, İlham İsmayılov, Aydan Məmmədli**
Yayım və satış meneceri
**Vadim Manafov**
Ünvan
**Bakı, Səməd Vurğun 34, AF Mall**
**Telefon: (012) 525 03 31**
**kaspiqazeti@kaspi.az**
Qəzet “Azərbaycan” nəşriyyatında çap olunub.
Sifariş: 2167
Tiraj: 2350
Müəlliflərin mövqeyi redaksiyanın mövqeyi ilə üst-üstə düşməyə bilər.

İTALİYADA BEYNƏLXALQ İNCƏSƏNƏT FESTİVALININ QALİBİ OLAN AZƏRBAYCANLI

# “MUSİQİ MƏNİM ÜÇÜN NƏFƏSDİR...”



**Nigar Seyidova:** “10 ilə yaxın İT sahəsində işləmişəm. Amma qazancımı musiqi təhsilimə, mahnı bəstələməyə, klip çəkilişinə xərcləyirdim. Həm konsertlərim olurdu, həm də İT mütəxəssisi kimi çalışırdım. Bakıda iki həyatım var idi. Günortanı ofis işi, axşamları və həftəsonumu ancaq musiqiyə həsr edirdim”.

SÖHBƏTLƏŞDİ
AYGÜN ƏZİZ
aygunaziz@kaspi.az



Musiqi onun üçün hər şeydir. Uşaqlığından başqa peşəyə yiyələnmək ağlının ucundan belə keçməyib. Hətta “20 illik ömrümün ya hamısını musiqisiz, ya da yalnız beş ilini musiqi ilə yaşaya bilərsən desələr, ikincini seçərdim” deyir. Elə bu sevgisi onu dünyaşöhrətli musiqiçilərlə eyni səhnədə görüşdürüb.

Müsahibimiz musiqiçi, İtaliyada IV Beynəlxalq “Özünü dünyaya göstər” (“Fatti vedere in tutto il mondo”) incəsənət festivalının qalibi, Azərbaycanda öz musiqi tərzi ilə seçilən, rok janrında oxuyan Nigar Seyidovadır. Nigar həm də musiqilərin söz yazarıdır.

O, Rusiyada anadan olub. Orta məktəbi bitirdikdən sonra Azərbaycan Dövlət İqtisad Universitetinin Beynəlxalq iqtisadi münasibətlər fakültəsinə daxil olub. Bununla yanaşı, Cövdət Hacıyev adına 3 nömrəli musiqi məktəbini vokal üzrə bitirib. Özəl şirkətlərdə 10 ilə yaxın İnformasiya Texnologiyaları (İT) mütəxəssisi kimi çalışıb.

**FABİO LAMBORGHİNİ, VİKTOR PELENİAGRE, LP...**

Nigar İtaliyada dünyaşöhrətli Viktor Peleniagrenin bəstəkar gecəsində sənətkarın iştirakı ilə onun mahnılarını ifa edib. Həmsöhbətimiz San Marinoda Fabio Lamborghininin fəxri qonaq olduğu konsertdə öz ifaları ilə qonaqları feyzyab edib. Bundan əlavə, Villa Verroccio ve Riminidə səhnə alıb. Onun konsertlərinin qonaqları İtaliyanın dövlət xadimləri, məşhur ifaçıları, dünyaşöhrətli bəstəkarlar olub.

Ömrümün böyük hissəsini xaricdə rok konsertlərinə gedərək keçirib. Hətta fanatı olduğu, dünyaşöhrətli rok musiqiçisi və söz yazarı LP (Laura Pergolizzi) ilə eyni səhnəni bölüşüb.

**“ÜÇ YAŞIMDAN İNGİLİS DİLİNDƏ OXUYURAM”**

● **Nigar xanım, vokalistsiniz. Bəs İqtisad Universitetində təhsil almaq zərurəti haradan yarandı?**

● Evin tək övladıyam. Valideynlərim əvvəlcə musiqiyə olan sevgimin keçici həvəs olduğunu düşünürdülər. Onlar səhnəyə çıxmağa, musiqi ilə peşəkar şəkildə məşğul olmağıma icazə vermirdilər. Ailəm məni universitet tələbəsi kimi görmək istəyirdi. Onların arzusunu reallaşdırmaq üçün İqtisad Universitetinə qəbul oldum. Amma musiqisiz özümü xoşbəxt saymırdım. Yenə də öz bildiyimi etdim, musiqi sahəsində özümü inkişaf etdirdim. Düzdür, 10 ilə yaxın İT sahəsində işləmişəm. Amma qazancımı musiqi təhsilimə, mahnı bəstələməyə, klip çəkilişinə xərcləyirdim. Həm konsertlərim olurdu, həm də İT mütəxəssisi kimi çalışırdım. Bakıda iki həyatım var idi. Günorta ofis işi, axşamları və həftəsonumu ancaq musiqiyə həsr edirdim.

● **Musiqi ilə ilk tanışlığınızı xatırlayırsınızmı? Sizcə, bu sevgi, istedad haradan gəlir?**

> *“Üç yaşımdan ingilis dilində mahnı oxumağa başlamışam. Özümü tanıyandan musiqiçi olmaq istəmişəm.”*









● Musiqi zövqümü anam formalaşdırıb. Onun musiqi duyumu çox yaxşıdır, musiqi təhsili də var. Üç yaşımdan ingilis dilində mahnı oxumağa başlamışam. Özümü tanıyandan musiqiçi olmaq istəmişəm. Mənə elə gəlir ki, Allah məni buna görə yaradıb. Rok musiqisi ilə yeddinci sinifdən sonra maraqlandım. Hazırda “Indie rock”, “country music”, “alternative rock” ən sevdiyim janrdır.

**“İTALİYANIN ALTI ŞƏHƏRİNDƏ KONSERTLƏR VERDİM”**

● **Tələbə olarkən İtaliyada 260 iştirakçının qatıldığı festivalda birincilik əldə etmisiniz. Bu festival karyeranıza necə təsir etdi?**

● Əvvəlcə, 2018-ci ilin mart ayında Bakıda “Testene Art Baku” beynəlxalq incəsənət festival-müsabiqəsi keçirildi. Orada qalib olduqdan sonra, İtaliyanın Rimini şəhərində “Özünü dünyaya göstər” (“Fatti vedere in tutto il mondo”) IV Beynəlxalq İncəsənət Festivalı baş tutdu. İtaliya, Azərbaycan, Rusiya, Qazaxıstan və digər ölkələrdən 260-dan çox iştirakçı qatılmışdı. Müəllimim Solmaz Qasımova məni çox dəstəkləyirdi. Münsiflər heyətində şair, bir çox rus ifaçılarının mahnılarının sözlərinin müəllifi Viktor Pelenyaqra, Rusiyanın xalq artisti Renat İbrahimov, Litva Musiqi və Teatr Akademiyasının professoru Arturas Ankskauskas, skripkaçı, professor Petras Kunka yer almışdı. Tədbirin fəxri qonağı Fabio Lamborghini idi. Burada qalib olmaq mənim üçün çox böyük uğur idi. Bu müsabiqədən sonra bizi İtaliyaya konsert proqramı üçün dəvət etdilər. İtaliyanın altı şəhərinə turlarımız oldu, iki həftə konsert verdik. Daha sonra rok festivalında iştirak etdim və orada da nailiyyət əldə etdim.

● **Ailəniz bu birinciliyi necə qarşıladı?**

● O qalibiyyətdən sonra anam anladı ki, bu kapriz, yaxud ərköyünlük deyil. Mən musiqi ilə yaşayıram və buna görə əlimdən nə gəlirsə edir, hər çətinliyə dözürəm. Həyatımda çox şeyi musiqiyə qurban vermişəm. Anam bu birincilikdən sonra məni dəstəkləməyə başladı, arxam, dayağım oldu.

● **Nigar xanım, musiqi sizin üçün nədir, bu sevginizi necə ifadə edərsiniz?**

● Musiqi mənim üçün nəfəs, sudur. Ac qalaram, amma oxumadan qala bilmərəm. Harada yaşamışamsa, qonşularım konserti dinləyib (gülür - A.Ə.). Axşam 10-dan sonra oxumurdum ki, insanları narahat etməyim. Özümü ancaq səhnədə xoşbəxt hiss edirəm. 20 il ömrüm varsa, desələr ki, ancaq beş ilini musiqi ilə yaşayacaqsan, 15 ili mənə lazım deyil. 15 il musiqisiz yaşamaqdansa, beş il musiqi ilə yaşamağı seçərəm.

# "YOL ƏHVALATI"NIN UNUDULAN REJİSSORU

Rejissor Teymur Bəkirzadə əsasən sənədli filmlər ustası kimi tanınıb. Sonradan bədii filmlər də çəkməyə başlayıb. Həmkarları onu işlədiyi aktyorlara verdiyi sərbəstliklə xatırlayırlar.



TƏRANƏ MƏHƏRRƏMOVA
taranamaharramova@kaspi.az

"Teymur Bəkirzadə əsasən sənədli filmlər ustası idi. Onun kino yaradıcılığında bədii filmlər çox azdır. Amma "Yol əhvalatı" filmi ilə Azərbaycan kinosuna tamaşaçıların hər zaman maraqla izlədiyi və üzlərində təbəssüm yaratdığı bir inci bəxş edib. Bu, kino əsəri onlarla filmə bərabərdir".

Rejissor Teymur Bəkirzadə haqqında söhbət düşəndə onu belə xatırlayırlar. Sentyabrın 21-i xatirə günündə sənət dostları mərhum rejissor haqqında "o, hələ çox belə uğurlu filmlər çəkə bilərdi", - deyə xatirələrini bölüşdülər.

### "AKTYORA İMKAN YARADIRDI Kİ, BACARDIĞINI ELƏSİN"

Xalq artisti Hacı İsmayılov xatırlayır: "O zaman "Azərbaycan" kinostudiyasının tamam fərqli dövrü idi. Orada iki min adam işləyirdi. Operatorlar, rəssamlar, bəstəkarlar o nəhəng studiyada çalışırdı. Çəkilən filmlər də Azərbaycan kinosunun inciləri sayılırdı. O vaxt film çəkmək də çətin idi. Çünki korifey rejissorlar vardı. Amma istedadlı cavanlar da yetişirdi. Onlardan biri də Teymur Bəkirzadə idi. O, yaxşı sənədli filmlər çəkirdi. Onun atletlərə həsr olunan "Dissonans" filmi bir çox beynəlxalq festivallarda mükafatlar qazandı. Artıq Teymur özünü bir rejissor kimi sübut etmişdi. O, bədii film çəkməyə hazır idi. Kinostudiyada hamı ona hörmət edirdi və "Tima" çağırırdı. Peşəkar insan idi". H.İsmayılov mərhum rejissorun çəkdiyi "Yol əhvalatı" filmində rol almasını xatırlayır: "Asim Cəlilovun ssenarisi əsasında "Yol əhvalatı" filminin çəkilişləri Teymur Bəkirzadəyə həvalə olundu. Belə bir komediyanı çəkməyin məsuliyyəti böyük idi. Amma Teymur bunun öhdəsindən uğurla gəldi. O, filmə tanınmış aktyorları dəvət etdi. Filmin uğuru həm də həmin məşhur aktyorlarla bağlı idi. Mən də həmin filmdə yer alan aktyorların sırasında olmağıma görə sevinirəm. Biz filmdə dördlük idik. Siyavuş Aslan başda olmaqla Yaşar Nuri, Kamil Məhərrəmov və mən cinayətkar dəstənin üzvləri idik. Film yəhudilərin qəbiristanlığının yanında, Neapol dairəsində və s. xüsusi seçilmiş yerlərdə çəkilirdi. Siyavuş, Yaşar improvizələrdən istədikləri qədər istifadə edirdilər. Teymur da yaxşı alındığını görüb etiraz etmirdi. O, aktyora imkan yaradırdı ki, bacardığını eləsin. Filmdə çətin çəkilən epizodlar vardı. Aeroport səhnəsi də onlardan biri idi. Rəhmətlik Ceyhun Mirzəyev orada aeroport əməkdaşı rolunu oynayırdı. Filmin uğuru böyük oldu. Orada işlədilən kəlamlar indi də adamların dilindədir. Hər dəfə də yada düşəndə gülürlər. Çox təəssüf ki, Teymur dünyasını tez dəyişdi. Yaşasaydı çox belə uğurlu filmlər çəkəcəkdi...

İndi o filmi xatırlayanda "bir aktyor kimi bəxtim gətirib ki, Teymur Bəkirzadənin filmində çəkilmişəm" deyirəm".

### FƏRİD ROLUNA TƏSADÜFİ ÇƏKİLİŞ

"Mən Teymur Bəkirzadənin iki filmində - "Buludlar çətirimizdir" və "Yol əhvalatı" filmlərində çəkilmişəm. Teymur istedadlı rejissor idi. Aktyorlara azadlıq verməyi xoşlayırdı. Ətrafındakıları dəqiq seçmək bacarığı vardı", - deyə "Yol əhvalatı" filmində Fərid rolunun ifaçısı - aktyor, rejissor Yusif Əlizadə xatırlayır: "Mən həm də filmdə rejissorun assistenti idim. Aktyor kimi filmə təsadüfən çəkildim. Fərid roluna dəvət etdiyim müğənni Elxan Əhədzadə səhər tezdən qastrol səfərinə getmişdi, bizə də xəbər etməmişdi. Filmin ikinci rejissoru Rafiq Dadaşov da "qoy bu rola elə Yusif özü çəkilsin", - deyə Teymur Bəkirzadəyə təklif etdi. O da gülə-gülə "dostu gəlmədiyinə görə sən Yusifi cərimələyirsən", - deyib razılıq verdi. Beləcə mən Fərid roluna çəkildim. Ssenarini əzbər bildiyim üçün heç bir çətinlik də yaşamadım". Y.Əlizadə deyir ki, "Yol əhvalatı"nın film kimi sevilməsində tanınmış aktyorlar Siyavuş Aslan, Yaşar Nuri, Kamil Məhərrəmov, Eldəniz Rəsulov və Hacı İsmayılovun böyük əməyi olub: "Teymur Bəkirzadənin yarım kəlməsi, bircə mimikası onlara bəs edirdi. O saat rejissorun nə demək istədiyini tuturdular. Teymur Bəkirzadə istedadlı insan idi, onu başa düşmək çətin deyildi". Y.Əlizadə xatırlayır: "Mustafa rolunun ifaçısı Gürcüstandan dəvət olunmuşdu. Teymur Bəkirzadənin istəyi ilə "İlk baxışdan məhəbbət" filmində baş rolu oynayan Vaxtanq Pançiludzeni şəxsən Gürcüstana gedərək yuxudan oyadıb filmə dəvət etmişəm. Vaxtanqın boyu Həmidə Ömərovadan qısa idi. Çəkiliş zamanı boy fərqinin hiss olunmaması üçün bəzi yerlərdə onun ayağının altına mişar daşı qoyurduq. Onun ayağının altına daş qoyanda Həmidəni gülmək tuturdu. Teymur müəllim də deyirdi ki, kameraları söndürün, qoy Həmidə gülüb qurtarsın, sonra davam edərik. Həmidə də güldüyünə görə hər dəfə üzr istəyirdi". Y.Əlizadə deyir ki, film ekranlara çıxandan sonra böyük uğur qazanıb: "Yol əhvalatı" ən uğurlu komediya filmi oldu".



### "FİLMİ BAŞA ÇATDIRMAĞA AZ QALMIŞ TEYMUR XƏSTƏLƏNDİ"



Y.Əlizadə də xatırlayır ki, həmkarı "Yol əhvalatı"na kimi sənədli filmlər rejissoru kimi tanınıb: "Teymur əsasən sənədli filmlər çəkirdi. O, bacarıqlı rejissor idi. Yaradıcılığı boyunca müxtəlif janrlara müraciət etməklə fərqli rejissor yozumunu da ortaya qoyurdu. "Buludlar çətirimizdir" filmini qardaşı Nicatla çəkdi. Sonuncu filmi 1997-ci ildə Amin Novruzovla birgə çəkdiyi "Ləqəbi "İKA"dır" bədii filmi oldu. Film SSRİ Dövlət Təhlükəsizlik Komitəsi əməkdaşlarının fəaliyyətindən, 1990-cı il yanvarın 20-də Bakıda baş vermiş faciəli hadisələrin təşkilində bu komitənin bilavasitə iştirakından bəhs edir. Filmi başa çatdırmağa az qalmış Teymur xəstələndi. O, filmi bitirə bilmədi. "Filmi sən başa çatdır", - deyə mənə təklif etdilər. Mən razılaşmadım. Çünki Teymurla dostluq edirdim. İstəmədim filmdə mənim adım yazılsın. Amil Novruzov filmi tamamladı. Film festivallarda da uğur qazanıb".



Hacı İsmayılov



Yusif Əlizadə

Foto: Rüfət Mikayılov / Global Media Group

Kaspi
ÜÇ ƏSRİN QƏZETİ
İDMAN
21 SENTYABR ŞƏNBƏ 2024
www.kaspi.az



Mütəxəssislər hesab edirlər ki, "Qarabağ" bu rəqiblərlə qarşılaşmalarda 10-dan artıq xal toplayacaq. Bu isə komandanın pley-off zonasına düşməsinə kifayət edə bilər.

# "QARABAĞ"IN LİQA YOLÇULUĞU BAŞLAYIR

Növbəti həftə UEFA Avropa Liqasında Liqa mərhələsinə start veriləcək. İlk dəfə yeni formatda keçirilən turnirdə Azərbaycan təmsilçisi "Qarabağ" da mübarizə aparacaq. Təmsilçimiz birinci turda London səfərinə yollanacaq. "Atlılar" güclü "Tottenhem"lə qarşılaşmada uğur qazanmağa çalışacaq.

**ORTABAB PÜŞK**

Yeni formata əsasən, digər qitəmiqyaslı turnirlər kimi Avropa Liqasında da qrup mərhələsi ləğv edilib. Artıq hər komanda dördü evdə, dördü səfərdə olmaqla səkkiz müxtəlif rəqibə qarşı oyun keçirəcək. Bunun yekununda ümumi turnir cədvəli əsasında 1-8-ci yerlər birbaşa 1/8 finala adlayacaq, 9-24-cü yerlər isə pley-off oynayacaqlar. Son 12 pillənin sahibi turnirlə vidalaşacaq və onların Konfrans Liqasında yola davam etmək şansı olmayacaq.

Püşkdə "Qarabağ"ın bəxtinə "Tottenhem" (İngiltərə), "Malmö" (İsveç), "Ayaks" (Niderland), "Budyo Qlimt" (Norveç), "Lion" (Fransa), "Elfsborq" (İsveç), FCSB (Rumıniya) və "Olimpiakos" (Yunanıstan) düşüb. Komandanın oyunları da eyni ardıcıllıqla olacaq. Azərbaycan təmsilçisi "Malmö", "Ayaks", "Lion" və FCSB-ni evdə qəbul edəcəksə, digər rəqiblərlə səfərdə üz-üzə gələcək. Ümumiyyətlə, püşkdən gileylənməyə dəyməz. Hazırkı güclərini nəzərə aldıqda İngiltərə təmsilçisi istisna olmaqla, digər rəqiblərin hər biri ilə yaxşı oynamaq və münasib nəticə əldə etmək mümkündür.



## YAXŞI TƏQVİM

Mübarizəyə London səfəri ilə başlayacaq "Qarabağ" yolçuluğunu Pireydə yekunlaşdıracaq. Ümumiyyətlə, təqvim "Qarabağ" üçün münasib hesab olunmalıdır. Ən önəmli məsələlərdən biri odur ki, "Budyo Qlimt" və "Elfsborq"la səfər qarşılaşmaları yanvar ayına düşmədi. Soyuq skandinav ölkələrinə qışın oğlan çağında səfərlər heç də komandanın ürəyincə olmazdı. Digər tərəfdən, "Ayaks" və "Lion" kimi güclü rəqibləri məhz evdə qəbul etməyi Qurban Qurbanovun komandası üçün üstünlükdür. Onlara qarşı səfər qarşılaşmalarında şans az olacaqdısa, Bakıda xal və ya xallar almaq imkanı kifayət qədərdir. Eyni zamanda, "Budyo Qlimt", "Elfsborq" və "Olimpiakos" səfərlərindən də komandanın əliboş qayıtmayacağını gözləmək olar.

**"QARABAĞ"IN ŞANSLARI YÜKSƏK QİYMƏTLƏNDİRİLİR**

Mütəxəssislər hesab edirlər ki, "Qarabağ" bu rəqiblərlə qarşılaşmalarda 10-dan artıq xal toplayacaq. Bu isə komandanın pley-off zonasına düşməsinə kifayət edə bilər. Xarici araşdırma resursları ümumi ehtimal olunan nəticələri nəzərə alaraq, "Qarabağ"ın orta sıralarda qərarlaşacağını proqnozlaşdırırlar.

Turnirin yeni formatı komandaları daha diqqətli olmağa sövq edir. Ümumi turnir cədvəli tərtib olunacağından burada artıq hər xalla yanaşı vurulan və buraxılan qolların da önəmi ikiqat artacaq.

## RƏQİBLƏRİ NECƏ SIRALAMALI?

"Qarabağ"ın rəqiblərinə gəlincə, "Tottenhem" onların arasında ən güclüsüdür. "Ayaks" və "Lion"u növbəti sıralara qoymaq olar. Lakin Niderland təmsilçisi əvvəlki əzəmətindən xeyli uzaqdır. "Lion" isə borc bataqlığındadır. Maliyyə problemlərinə görə komandada ümumi ab-hava olduqca gərgindir. Bu rəqiblərlə evdə qarşılaşması da "Qarabağ"ın şanslarını artırır. Digər beş komanda isə son Azərbaycan çempionunun dişinə görədir. Onlardan üçü Skandinaviya ölkələrindəndir və şimallılar təmsilçimiz üçün olduqca münasib sayılırlar. "Olimpiakos"la buna qədər üz-üzə gələn "Qarabağ" rəqibinə uduzmayıb, hətta səfərdə 3:0 hesablı parlaq qələbə əldə etməyi bacarıb. FCSB isə yeni rəqibdir. Lakin Rumıniya klub futbolu da heç də top səviyyədə deyil və Bakıda bu rəqibə qalib gəlmək ehtimalı böyükdür. Artıq avrokuboklarda kifayət qədər böyük təcrübəsi olan "Qarabağ" daha güclü rəqiblərlə mübarizədən qalib ayrılmağı bacarıb. Ümumiyyətlə, Liqa fazası ilə bağlı pozitiv elementlər çoxdur və bunlar komandanın uğur əldə edəcəyinə inamı artırır.

## "QARABAĞ" ARTIQ ÖZÜNÜ AVROKUBOKLARDA TƏSDİQLƏYİB

Ötən mövsüm avrokuboklarda ən uğurlu dövrünü keçirən "Qarabağ" heyətinin özəyini qoruyub saxlamağı bacardı. Xüsusilə Juninyo, Benziya, Julio Romao, Landro Andrade kimi oyunçuların komandada qalmasını elə ən yaxşı transferlər kimi düşünmək də olar. Andrey Luninin gedişindən sonra qapı xəttinə heç də ondan zəif olmayan və hətta daha potensiallı Mateuş Koxalski transfer olunub. Üstəlik, hücum xətti Emmanuel Addai və "Sabah"dakı oyunu ilə futbolsevərlərin rəğbətini qazanan Aleksey Kaşşukla gücləndirilib. Bu, komandanın irəlidə daha təhlükəli olacağını deməyə əsas verir. Lakin arxa xətdə müəyyən problemlər nəzərə çarpmaqdadır. Xüsusilə, Kevin Medinanın əvvəlki formasından uzaq olması azarkeşləri qayğılandırır. Çoxsaylı cəhdlərə baxmayaraq, müdafiəçi transferi reallaşdırmaq mümkün olmadı və bu, müəyyən çətinlik yarada bilər.

Ümumən, "Qarabağ" artıq özünü avrokuboklarda təsdiqləyib. Bu komanda üçün Liqa fazasında uğurlu nəticə adi hal hesab olunmalıdır. Azarkeşlərin "atlılar"dan tələbi daha irəlilərə getməkdir. Mövcud situasiyada bu, olduqca real görünür. Bizə isə yeni formatda yeni tarix yazmaq yolçuluğunda "Qarabağ"a uğur və bol şans arzulamaq qalır.